
*Doğma, canım-varlığım qədər sevdiyim*
*Azərbaycanım mənim qibləgahımdır*

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 22 (24.508)

*13 iyun 2026-cı il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*

# Müdrik siyasətin uğurlu nəticələri – qurtuluşdan inkişafa



## *Dövlətçiliyin xilas tarixinin başlanğıc mərhələsi*

**Tariximizin dönüş nöqtəsini yaradan dahi şəxsiyyət Heydər Əliyevin müstəqil dövlət quruculuğu yolu bu qədim torpaqdan – Naxçıvandan başladı. Blokadaya salınan və davamlı hücumlara məruz qalan ulu diyar ozamankı ittifaq və respublika rəhbərlərinin nəzərində arzuedilməz bir məkana çevrilmişdi. Bütün bunlara baxmayaraq, bu elin qeyrətli insanları ağrı-acılara sinə gərir və haqq mübarizəsini davam etdirirdi. Belə bir məqamda siyasi təqiblərə və haqsız böhtanlara məruz qalmış dünya miqyaslı siyasətçi, dövlət xadimi Heydər Əliyevin Naxçıvana dönüşü doğma diyarda böyük coşqu ilə qarşılanmışdı. Çünki O, blokada şəraitində yaşayan naxçıvanlıların son ümid yeri idi. 1990-cı ildə keçirilən seçkilərdə Ulu Öndər respublika və muxtar respublika parlamentlərinə deputat seçildi. 1991-ci il sentyabrın 3-də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilməsi müstəqil dövlətçilik tariximizdə böyük hadisə oldu. Məhz bundan sonra muxtar respublikanın işğal təhlükəsindən qorunması üçün mühüm siyasi-diplomatik və müdafiə tədbirləri həyata keçirildi, qədim diyarın sosial-iqtisadi inkişafının təmin olunması istiqamətində əsaslı addımlar atıldı. Beləliklə, 1990-1993-cü illər – görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü müstəqil dövlət quruculuğu yolunda həlledici mərhələ oldu.**

Səhifə ⇨ 2

# Müdrik siyasətin uğurlu nəticələri – qurtuluşdan inkişafa




## Dövlətçiliyin xilas tarixinin başlanğıc mərhələsi

***Vətən oğlunun xalqı qarşısında misilsiz fədakarlığı***

Böyük şəxsiyyət Heydər Əliyev hələ Naxçıvanda fəaliyyət göstərdiyi müddətdə əsl vətənpərvərlik, liderlik qətiyyəti ilə dövlət müstəqilliyinin qazanılması və milli özünüdərkin təmin olunması prosesinə rəhbərlik edirdi. Qədim diyarda bu addımlar atılanda ölkəmizin digər bölgələrində hərc-mərclik hökm sürürdü və bu hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı. 4 iyun 1993-cü ildə Gəncədə baş verən hadisələr, vəziyyətin silahlı qarşıdurma səviyyəsinə çatdırılması isə onsuz da ölkədə mövcud olan mürəkkəb vəziyyəti bir qədər də ağırlaşdırmışdı. Azərbaycan vətəndaş müharibəsinin astanasında dayanmış, müstəqilliyini yenidən itirmək təhlükəsi ilə üzləşmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin Bakıya dəvət olunması üçün kütləvi mitinqlər keçirilir, ziyalılar Ulu Öndərə müraciətlər göndərir, Naxçıvana gələn insanlar Onu xalqı bu bəladan qurtarmağa çağırırdı. Bu müraciətləri nəzərə alaraq Azərbaycan xalqının böyük oğlu 1993-cü il iyunun 9-da Bakıya qayıtdı.

***Xalqın istəyi, tarixin zərurəti***

Bakıya qayıdan Heydər Əliyev hadisələri araşdırmaq, baş verənlərlə yerindəcə tanış olmaq məqsədilə Gəncəyə yollandı. Gəncədə apardığı danışıqlar nəticəsində silahsız, qan axıdılmadan məsələ həllini tapdı. Bununla da Azərbaycanı fəlakətə sürükləyə biləcək vətəndaş müharibəsinin qarşısı alındı. Daim xalqa arxalanan Ulu Öndər Heydər Əliyev qısa müddətdə ölkədə milli həmrəyliyə, birliyə nail oldu. Beləliklə, Heydər Əliyev 1993-cü il iyunun 15-də Milli Məclisin Sədri seçildi. 15 iyun olmasa idi, nə Azərbaycan, nə də müstəqil dövlət olacaqdı.

Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu, tarixini, bu gününü özünə qaytardı. Həmin ilin oktyabrında Azərbaycan dövlətinin Prezidenti seçilən Ulu Öndər Heydər Əliyev Azərbaycanda yaranan böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. ***"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır"***, – deyən Ümummilli Lider Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Dahi rəhbər 1994-cü ilin may ayında atəşkəsin elan edilməsinə nail oldu. O, müstəqil Vətənimizi dünyaya tanıtdı, "Əsrin müqaviləsi"nin imzalanması kimi əhəmiyyətli bir uğura imza atdı. 1993-2003-cü illər Azərbaycan tarixinə dirçəliş, inkişaf, tərəqqi dövrü kimi yazıldı. Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyi, sarsılmazlığı təmin edildi. 15 iyun isə müasir Azərbaycan dövlətinin tarixinə "Milli Qurtuluş Günü" kimi daxil oldu. Sonralar xalqın ən müxtəlif təbəqələrinin arzu və istəkləri nəzərə alınaraq Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 İyun – Milli Qurtuluş Günü Azərbaycan Milli Məclisinin Qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi.

***Müasir çağırışlarla inkişaf***

Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətinin əbədiliyinin təmin edilməsindəki ən böyük xidmətlərindən biri də müstəqil dövlətçiliyin inkişafı konsepsiyasının hazırlanması və həyata keçirilməsi olub. Nəticədə, dahi şəxsiyyətin əsasını qoyduğu bütün sosial-iqtisadi layihələr və siyasi konsepsiya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl şəkildə həyata keçirildi. Aradan keçən bu illər təkcə sözügedən qayıdışa bəslənən ümidlərin özünü doğrultması ilə yadda qalmadı, həm də Azərbaycanın bugünkü inkişafının etibarlı bünövrəsi qoyuldu.

Vaxtilə Heydər Əliyevin müstəqil və ərazi bütövlüyünü tam görmək istədiyi Azərbaycan bu gün azaddır, bütövdür. Bu möhtəşəm uğuru qalibiyyətin beynəlxalq hüquqi-normativ bazasının formalaşdırılması, informasiya blokadasının yarılması, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması, milli iqtisadiyyatın gücləndirilməsi, ordu quruculuğunda həyata keçirilən islahatlar, qəhrəman zabit və əsgərlərimizin şücaəti, ən əsası isə Ali Baş Komandanın qətiyyəti şərtləndirdi. Bütün bunlara isə Azərbaycanda Milli Qurtuluşdan başlanan Heydər Əliyev dövlətçilik siyasətinin həyata keçirilməsi sayəsində nail olunub. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib.

Bu gün Azərbaycan müstəqildir, bütövdür, güclüdür, dünya söz sahibidir və bu gün təkcə bu Vətənin sərhədləri içərisində yaşayan azərbaycanlılar yox, dünyanın müxtəlif yerlərində yaşayan 50 milyondan çox həmvətənimiz müstəqil, qalib Azərbaycanla qürur duyur. Bu gün üçrəngli bayrağımızı Müzəffər Sərkərdə Şuşada, Xankəndidə səmalara yüksəltdi. Artıq şanlı Vətənin azad səmasında qürurla dalğalanan qələbə bayrağı elə bir ucalıqdadır ki, onu Şimaldan Cənuba, Şərqdən Qərbə bütün dünya görür və ona ehtiram göstərir.

✍ **Ramiyə ƏKBƏROVA**

## Qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və daşıma xərclərinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Qeyri-neft-qaz sektorunun inkişafı ölkənin iqtisadi dayanıqlılığının gücləndirilməsi, dünyada cərəyan edən mürəkkəb geosiyasi proseslərin, qlobal tədarük zəncirindəki qırılmaların və xarici bazarlardakı qeyri-sabitliyin milli iqtisadiyyata mənfi təsirlərinin minimallaşdırılması, habelə ölkənin strateji iqtisadi suverenliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qeyri-neft-qaz sektorunun strukturunda qeydə alınan müsbət dinamikaya baxmayaraq, yerli malların xarici bazarlara, eləcə də Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş malların Azərbaycan Respublikasının digər ərazilərinə çıxış imkanları hələ də məhduddur.

Qeyri-neft-qaz sektorunun ixrac potensialının tam reallaşdırılmasına, habelə blokada şəraitində olması da nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikasında istehsal edilən malların ölkənin digər ərazilərinə daşınmasına mane olan ən mühüm səbəblərdən biri logistik xərclərin yüksəkliyidir. Xüsusilə yerli qeyri-neft-qaz mallarının ənənəvi bazarlardan kənar yeni və alternativ xarici bazarlara yönəldilməsi zamanı yaranan yüksək nəqliyyat-daşıma xərcləri ixracatçıların rəqabət imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Logistik zəncirin mürəkkəbliyi və uzaq məsafəli daşımaların malın maya dəyərindəki xüsusi çəkisinin yüksək olması ixracın mallar üzrə və coğrafi şaxələndirilməsinə maneə yaradan amillərdən biridir. Bu isə, nəticə etibarilə, qeyri-neft-qaz mallarının ümumi ixracdakı payının potensial imkanlardan aşağı qalmasına səbəb olur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında istehsal olunan qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və Naxçıvan Muxtar Respublikasında istehsal olunan malların ölkənin digər ərazilərinə daşınmasının dəstəklənməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının ixracı zamanı onların daşınması üçün çəkilmiş xərclərə görə həmin malların növündən, gömrük dəyərindən, ixrac edildiyi ölkədən və nəqliyyat növündən asılı olaraq, dövlət büdcəsinin vəsaiti hesabına daşıma dəstəyi məbləği (bundan sonra – ixrac daşıma dəstəyi) ödənilsin.

2. Naxçıvan Muxtar Respublikasında istehsal olunan Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının Azərbaycan Respublikasının digər ərazilərinə quru yolu ilə daşınması üçün çəkilmiş xərclərə görə dövlət büdcəsinin vəsaiti hesabına daşıma dəstəyi məbləği (bundan sonra – daxili daşıma dəstəyi) ödənilsin.

3. Müəyyən edilsin ki:

3.1. ixrac daşıma dəstəyi məbləği aşağıdakılar əsasında hesablanır:

3.1.1. ixrac olunan malın daşınması üçün çəkilmiş xərclərə görə nağdsız qaydada ödənilmiş məbləğin:

3.1.1.1. daşıma dəmir yolu, hava və dəniz nəqliyyatı vasitələri, habelə Azərbaycan Respublikasında qeydiyyata alınmış avtomobil nəqliyyatı vasitələri ilə həyata keçirildikdə – 70 (yetmiş) faizi;

3.1.1.2. daşıma Azərbaycan Respublikasında qeydiyyata alınmamış avtomobil nəqliyyatı vasitələri ilə həyata keçirildikdə – 50 (əlli) faizi;

3.1.2. istifadə olunan nəqliyyat növündən asılı olaraq, ixrac edilən malın gömrük dəyərinin:

3.1.2.1. daşıma avtomobil, dəmir yolu və hava nəqliyyatı vasitələri ilə həyata keçirildikdə – 15 (on beş) faizi;

3.1.2.2. daşıma dəniz nəqliyyatı vasitələri ilə həyata keçirildikdə – 5 (beş) faizi;

3.2. ixrac daşıma dəstəyinin yekun məbləğini bu Fərmanın 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərinə uyğun olaraq hesablanmış məbləğlərdən ən az olanı təşkil edir;

3.3. daxili daşıma dəstəyinin məbləği Naxçıvan Muxtar Respublikasında istehsal olunan Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının Azərbaycan Respublikasının digər ərazilərinə quru yolu ilə daşınması üçün çəkilmiş nəqliyyat xərclərinə görə nağdsız qaydada ödənilmiş məbləğin 70 (yetmiş) faizini təşkil edir;

3.4. ixrac və daxili daşıma dəstəklərinin məbləğləri rüb ərzində həyata keçirilən daşımalara görə müvafiq olaraq ixracatçının və satıcının (malgöndərənin) müraciəti əsasında həmin rüb bitdikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən ödənilir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 1-ci və 2-ci hissələrində nəzərdə tutulan dəstək növlərinin:

4.1.1. 2026-cı ildə ödənilməsinin maliyyələşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.1.2. 2027-2036-cı illərdə ödənilməsinin maliyyələşdirilməsi üçün zəruri vəsaitin həmin illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulmasını təmin etsin;

4.2. üç ay müddətində aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

4.2.1. ixrac və daxili daşıma dəstəyi məbləğlərinin ödənilməsi zamanı qeyri-neft-qaz mallarının Azərbaycan Respublikası mənşəli olmasının müəyyən edilməsi qaydasını;

4.2.2. ixrac və daxili daşıma dəstəklərinin şamil olunmadığı əməliyyatların və şəxslərin siyahısını;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. üç ay müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

5.1.1. ixrac daşıma dəstəyinin şamil olunacağı qeyri-neft-qaz mallarının və onların ixrac olunduğu ölkələrin (ölkə qruplarının) siyahısını;

5.1.2. ixrac və daxili daşıma dəstəyi məbləğlərinin ödənilməsi ilə bağlı müraciət edilməsi və həmin müraciətlərə baxılması qaydasını;

5.1.3. müxtəlif nəqliyyat növləri ilə (multimodal) daşımalar zamanı ixrac daşıma dəstəyi məbləğinin hesablanması qaydasını;

5.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Bu Fərmanın 1-3-cü hissələri 2026-cı il sentyabrın 1-dən qüvvəyə minir və 2036-cı il sentyabrın 30-dək həyata keçiriləcək ixrac və daxili daşımalara münasibətdə tətbiq olunmaqla 2036-cı il dekabrın 31-dək qüvvədədir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 9 iyun 2026-cı il*

# Şuşa Bəyannaməsi – tarixi münasibətlərin yeni mərhələsi



### Əbədi qardaşlığın simvolu

Prezident İlham Əliyev Vətən müharibəsində Türkiyənin Azərbaycana dəstəyini yüksək dəyərləndirərək deyib: ***"İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan əziz qardaşım, sayın Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə etmişdir. Müharibənin ilk saatlarından o demişdir ki, Azərbaycan tək deyil. Bu həm bizi ruhlandırdı, eyni zamanda müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı, durdurdu. Dedi ki, Türkiyə Azərbaycanın yanındadır və müharibənin ilk saatlarından son dəqiqələrinə qədər əziz qardaşımın və Türkiyə Cümhuriyyətinin, qardaş türk xalqının dəstəyi bizə əlavə güc verirdi".***

44 günlük Zəfər yürüşündən sonra tarix Şuşada iki dövlətin əzəli qardaşlığının sarsılmaz olduğuna bir daha şahid oldu. Türkiyə-Azərbaycan arasında yeni və möhtəşəm bir səhifə açıldı. 15 iyun 2021-ci ildə yüz il öncə, 1921-ci ildə imzalanmış Qars müqaviləsi, 9 fevral 1994-cü ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə" və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol", eləcə də 16 avqust 2010-cu il tarixdə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Şuşada imzalanan bəyannamə ilə iki qardaş ölkə arasında tarixi münasibətlər yeni mərhələyə qədəm qoydu. İki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlığın simvoluna çevrilən Şuşa Bəyannaməsi Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının göstəricisi oldu. 2022-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə Şuşa şəhərində keçirilən "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans bir daha Türkiyə-Azərbaycan qardaşlığının sarsılmazlığını, əbədiliyini dünyaya nümayiş etdirdi.

### Region üçün yeni tarixi gerçəklik

Hər keçən gün keyfiyyətcə yeni mərhələyə yüksələn iki ölkənin müttəfiqlik əlaqələri regionun geostrateji reallıqlarını tam nəzarətdə saxlayır, gələcək inkişaf üçün real imkanlar yaradır. Şuşa Bəyannaməsi ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini özündə ehtiva edir. Bəyannamədə strateji əhəmiyyət kəsb edən bütün əməkdaşlıq istiqamətləri əhatə olunur. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti və sair məqamlar əksini tapır. Həmçinin bəyannamədə enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilir.

### Bir-birimizin təhlükəsizliyini təmin etmək hüququna sahibik

Şuşa Bəyannaməsində hərbi əməkdaşlıq amilinə də xüsusi yer verilir. Bu müqavilə ilə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardımla ölkələrimiz bir-birinin təhlükəsizliyini təmin edəcək. Türkiyə Respublikasının hərbi sənayesinin inkişafını nəzərə alaraq deyə bilərik ki, müdafiə sənayesi sahəsində əlaqələrin inkişafı bu iki ölkənin hərbi qüdrətini daha da artıracaq.

İki dövlətin Silahlı Qüvvələri müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılır. Ordunun modernləşdirilməsi istiqamətində birgə səylər göstərilir, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlər həyata keçirilir. Silahlı Qüvvələrin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlıq və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi bəyannamədə xüsusi yer tutur.

Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması xüsusi əhəmiyyət daşıyır. Uzunmüddətli sülhün təmin edilməsi istiqamətində Azərbaycan və Türkiyənin birgə təşəbbüsləri bu sahədə səylərin artırılmasının zəruriliyini göstərən ən gözəl nümunədir. Şuşa Bəyannaməsi imzalanarkən Azərbaycan Prezidenti İlham Əliyev bu siyasi hadisənin tarixi əhəmiyyətini vurğulayaraq deyib: ***"Şuşa Bəyannaməsi ilə Türkiyə açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi halında, ordu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Digər bir vacib məqam ondan ibarətdir ki, bəyannamə ölkələr arasında münasibətlərin gələcəyini müəyyən edir və iki ölkə arasında əlaqələri ən yüksək səviyyəyə ucaldır".***

### Türk dünyasının birlik və rifahına xidmət

Azərbaycanın və bütövlükdə, Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərindəki tarixi görüşdə imzalanan bəyannamə həm də Türk dünyasının birlik və rifahına xidmət edir. Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığın gücləndirilməsi və Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türk Dövlətləri Təşkilatı, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verilir. İki qardaş ölkə arasında imzalanan bəyannamədən üç il sonra 2024-cü il iyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirildi. Həmin görüşdə çıxış edən dövlət başçısı dedi: ***"Qardaşım Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan və Türkiyənin rəsmi müttəfiqliyinin əsasını qoyan Şuşa Bəyannaməsi də 2021-ci ildə məhz Şuşada imzalanmışdır... Bu gün Qarabağ Bəyannaməsi də Şuşada imzalanacaq. Əminəm ki, bu gün imzalayacağımız Qarabağ Bəyannaməsi, qəbul etdiyimiz qərarlar Türk dünyasının həmrəyliyini və eyni zamanda Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunu daha da gücləndirəcəkdir".***

Şuşa Bəyannaməsində milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması da nəzərdə tutulub ki, bu da ölkələrin iqtisadi və ticarət diversifikasiyası ilə bağlı bir-birlərinə qarşılıqlı dəstək olacağı anlamına gəlir. Ticari şaxələnmənin hər iki ölkə üçün xüsusi əhəmiyyət daşıdığını nəzərə alsaq, bu sahədə əməkdaşlıq iqtisadi inkişafın dayanıqlılığı baxımından da vacib hesab olunur. Digər mühüm məqam malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsidir.

### Tranzit-nəqliyyat potensialı daha da inkişaf etdirilir

İki ölkə arasında 20 ildən artıqdır ki, ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şərait yaradılır. Bəyannamədə Azərbaycan və Türkiyənin malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görülməsinin də vacibliyi qeyd olunur. Şərq-Qərb/Orta Beynəlxalq Nəqliyyat Dəhlizinin rəqabət qabiliyyətinin artırılması əsas hədəflərdəndir. Bu məqsədlə Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirəcəklər. Onu da xüsusi olaraq vurğulamaq lazımdır ki, bəyannamə imzalanandan əvvəlki ildə Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsi 4 milyard 160 milyon dollar idisə, bu göstərici ötən il 5 milyard 720 milyon dollaradək yüksəlib. Bu, bəyannamə imzalanandan sonra ölkələr arasındakı ticarət dövriyyəsinin 28 faiz artması deməkdir. Hədəf isə Azərbaycan və Türkiyə arasındakı ticarət dövriyyəsini 15 milyard dollara çatdırmaqdır. Azərbaycanın xarici ticarət dövriyyəsinin 11,6 faizi Türkiyənin payına düşür. Bu İtaliyadan sonra Türkiyənin ikinci ən böyük ticarət tərəfdaşı olması deməkdir. Qardaş dövlət Azərbaycan ixracatında da ikinci ən böyük tərəfdaşdır: 13,5 faiz. Azərbaycanın qeyri neft-qaz ixracının 16,5 faizi Türkiyənin payına düşür. İqtisadi münasibətlər yalnız ticari əlaqələrdə deyil, həmçinin qarşılıqlı sərmayə qoyuluşlarında da özünü göstərməkdədir. İndiyədək Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard dollardan çox, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 18 milyard dollar sərmayə yönəldib.

### Turanı birləşdirən ümid körpüsü: Naxçıvan

Vətən savaşında qazanılan zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi istiqamətində çox önəmli və tarixi bir məsələnin həllini təmin etdi. 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsində də Naxçıvana xüsusi yer ayrılıb. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyətinin nəzərə alınması nəzərdə tutulur. Həmçinin Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılması və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisi iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcək. Öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən Azərbaycan və Türkiyə regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlər formalaşdırır. Eləcə də münaqişələrin, regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər. Hər iki ölkə sülhsevər siyasəti ilə regionun gələcək taleyini sülh müqaviləsinin imzalanmasında görür.

Bütün bu sadaladıqlarımız onu göstərir ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və türk xalqının atası Mustafa Kamal Atatürkün müdrikcəsinə söylədikləri ***"Bir millət, iki dövlət"*** və *"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir"* ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyi xüsusi vurğulanaraq imzalanan bəyannamə bütün sahələrdə strateji əməkdaşlığı daha da dərinləşdirdi və sarsılmaz qardaşlığın simvolu oldu.

**Ramiyə ƏKBƏROVA**

# Azərbaycan dünya iqtisadi güclərini bir araya gətirir

**Respublikamızın ABŞ və Çinlə strateji tərəfdaşlığı regiona böyük dividendlər qazandıracaq**



Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan malik olduğu coğrafi şərait və təbii resurslarından maksimum səmərəli istifadə etməklə hərtərəfli sosial-iqtisadi inkişaf xəritəsi müəyyənləşdirib. Bu xəritə təkcə bir ölkə, bir region üçün deyil, ümumilikdə, bütün dünya üçün faydalı, sərfəli əməkdaşlıq platforması ortaya qoyur. Bəli, respublikamızın müəllifi olduğu, qlobal çağırışlara əsaslanan meqa layihələr, nəqliyyat-logistika potensialı iqtisadi güclərin maraq kəsişməsinə səbəb olmaqla dünya nizamının formalaşdırılmasına əvəzsiz töhfələr verir. Başqa sözlə, ölkəmiz artıq etibarlı ticarət tərəfdaşlığı statusu üzərində mühüm geoiqtisadi mərkəz modeli formalaşdırmaqdadır. Azərbaycan dövlətinin sahibi olduğu bütün imkanlar fonunda apardığı çoxvektorlu, balanslı siyasət nəticəsində dünyanın iki iqtisadi gücü – ABŞ və Çin bir araya gəlir.

Azərbaycanla Çin arasında münasibətlər son bir neçə ildə, daha dəqiq desək, Vətən müharibəsində qazanılan tarixi zəfərdən sonra yeni reallıqlar çərçivəsində yüksək inkişaf yoluna qədəm qoyub, müxtəlifsəviyyəli işgüzar səfərlər zamanı yeni əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib. 2024-cü il iyulun 3-də imzalanan Strateji Tərəfdaşlıq Bəyannaməsi ilə ölkələrarası qarşılıqlı etimadın və əməkdaşlığın təməlləri daha da möhkəmləndirilib, dünya iqtisadi sisteminin mənzərəsini dəyişdirə biləcək vacib strateji məqsədlər irəli sürülüb. Ötən il aprelin 23-də Prezident İlham Əliyevin Çinə səfəri çərçivəsində liderlər arasında imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" isə hər iki ölkənin bir-biri üçün prioritet təşkil edən sahələri etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiqləməklə bu tərəfdaşlığı yeni, daha yüksək mərhələyə daşıyıb.

Azərbaycanın bir neçə ildə Çinlə olan əlaqələrindəki oxşar tendensiya bir neçə ay ərzində ABŞ ilə münasibətlərində də özünü göstərib. Belə ki, 2025-ci il 8 avqust tarixli Vaşinqton zirvəsindən sonra Azərbaycan-ABŞ əməkdaşlığı yeni inkişaf mərhələsinə yüksəlmişdir. Hazırda daha da möhkəmlənərək həm regional, həm də qlobal əhəmiyyətli geosiyasi faktora çevrilməkdədir. Ekspertlər tərəfindən bu, dünya tarixində misli görünməmiş siyasi nailiyyət, böyük diplomatik müvəffəqiyyət kimi qiymətləndirilir. Bu il fevralın 10-da respublikamız müstəqillik dönəmindəki mühüm siyasi uğurlarından birinə imza ataraq dünyanın bir nömrəli ölkəsi ABŞ ilə strateji tərəfdaşlıq yoluna qədəm qoyub və münasibətlərin yüksəlişinə dair xartiya imzalanıb. Beləliklə, respublikamız hazırda dünyanın iqtisadi baxımından iki ən güclü ölkəsi ilə strateji tərəfdaş əlaqələrinə malik olub. Yaxın gələcəkdə Çinlə olan etibarlı ticarət əməkdaşlığı ABŞ-nin tərəfdaşlığı ilə daha da güclənəcək və hər iki güc ortaq layihələrdə bir araya gələcəklər.

## "Bir kəmər, bir yol" təşəbbüsü, TRIPP layihəsi

Bu gün Çinlə ABŞ-nin maraqları Cənubi Qafqazda Azərbaycanın fəal rolu ilə reallaşan layihələr vasitəsilə kəsişir. "Bir kəmər, bir yol" təşəbbüsü və Zəngəzur dəhlizi (TRIPP) layihəsi bu kəsişmənin əsas özəkləridir. Nəqliyyat-logistika baxımından Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Avropa ilə Asiya arasında böyük ticarət körpüsü yaratmaqla, birinci növbədə, Azərbaycan-Çin strateji tərəfdaşlığının güclənməsinə mühüm töhfələr verir. Son illərdə yaradılan müasir nəqliyyat infrastrukturu, o cümlədən ticarət donanması, növbəti illərdə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və doqquz beynəlxalq hava limanı da daxil olmaqla bütün infrastrukturlar Azərbaycanın Orta Dəhlizin rentabelliyinin artırılmasındakı fəal rolunun mühüm göstəriciləridir. Orta Dəhlizlə yükdaşımaların həcminin son 5 ildə 7 dəfə artması da məhz ölkəmizin bu sahədəki aktiv fəaliyyətinin nəticəsidir. Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Türkiyə vasitəsilə Avropaya uzanan bu beynəlxalq nəqliyyat marşrutunun ötürücülük qabiliyyəti 2027-ci ilə qədər ildə 10 milyon tona çata bilər ki, bu da Azərbaycanın tranzit potensialının genişləndirilməsi və infrastruktura əlavə investisiyaların cəlb edilməsi üçün davamlı zəmin yaradacaq.

Bu mühüm iqtisadi əməkdaşlıq platforması (Orta Dəhliz) yaxın gələcəkdə Çinlə yanaşı, həm də Azərbaycan-ABŞ strateji tərəfdaşlığında aparıcı rol oynayacaq. Təsadüfi deyildir ki, Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin bu il fevralın 10-da ölkəmizə səfəri çərçivəsində imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nda da regional bağlantılar sahəsində ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi baxımından Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) əhəmiyyəti xüsusi vurğulanır. Hazırkı reallıq odur ki, Avropa və Asiya arasında ticarət körpüsü yaradan respublikamız Orta Dəhlizin yükaşırma qabiliyyətinin artırılması istiqamətində atdığı mütərəqqi addımlarla Avrasiyanın nəqliyyat xəritəsini formalaşdırmaqla iki iqtisadi gücün – ABŞ ilə Çinin marağını eyni mərkəzdə birləşdirməyi bacarıb.

Məlum olduğu kimi, bu gün Çin də daxil olmaqla Orta Asiya ölkələri Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun imkanlarından maksimum istifadə edərək premium Avropa bazarından böyük dividendlər əldə edirlər. Məhz bütün bu iqtisadi, ticari üstünlükləri nəzərə alsaq, həm ABŞ-Azərbaycan, həm də Çin-Azərbaycan əlaqələrinin inkişafı baxımından növbəti dövrdə Orta Dəhlizin daha önəmli yer tutacağı qənaətinə gələ bilərik. ABŞ-nin Azərbaycanla Strateji tərəfdaşlığa dair xartiyada Orta Dəhlizə dair birgə əməkdaşlıq niyyətini ifadə etməsi layihəyə yeni böyük həcmdə investisiya yatırımının olacağını göstərən mühüm amildir. Digər tərəfdən, Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmalara əsasən Zəngəzur dəhlizi (TRIPP) layihəsi də artıq reallaşmaq mərhələsindədir ki, bu da Orta Dəhlizin əhəmiyyətinin regional və qlobal səviyyədə kifayət qədər artacağından xəbər verir.

Zəngəzur dəhlizinin açılması həm Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün tam şəkildə reallaşmasına və eyni zamanda ABŞ-nin qlobal iqtisadiyyatda mövqeyinin güclənməsinə töhfə verməklə hər iki iqtisadi güc üçün mühüm əməkdaşlıq körpüsü yarada bilər. Başqa sözlə, artıq Cənubi Qafqaz regionu ABŞ, Çin kimi dünya iqtisadiyyatının nəhənglərinin də yer aldığı böyük əməkdaşlıq mərkəzinə çevrilmək mərhələsindədir. Azərbaycan isə Çinlə yanaşı, ABŞ ilə strateji tərəfdaşlıq yoluna qədəm qoymaqla həm Naxçıvanla ölkəmizin digər ərazisi arasında quru əlaqəsinə nail olacaq, həm də tranzit ərazi statusunu daha da möhkəmləndirməklə yeni siyasi, iqtisadi dividendlər qazanacaq. Eyni zamanda məlumdur ki, ABŞ və Çin müxtəlif ölkələrin iqtisadiyyatlarına və layihələrinə aktiv investisiya yatıran aparıcı dövlətlərdəndir. Belə olan halda bu amil iqtisadiyyatını şaxələndirməkdə maraqlı olan Azərbaycanla yanaşı, region ölkələri üçün mühüm önəm daşıyır. Bundan başqa, "Bir kəmər, bir yol" təşəbbüsünün və Zəngəzur dəhlizi (TRIPP) layihəsinin gerçəkləşməsi Böyük İpək Yolunun bərpasına xidmət etməklə, həm də Naxçıvanın tarixi missiyasını yenidən özünə qaytararaq bölgənin sosial-iqtisadi inkişafı prosesinə güclü təkan verəcək. Bütün bunların fövqündə Cənubi Qafqaz heç vaxt olmadığı qədər sülhün, təhlükəsizliyin hökm sürdüyü əməkdaşlıq məkanına çevriləcək. Bu məkanın qazandırdığı üstünlüklərdən həm Asiya, həm Avropa ölkələri, həm də ABŞ və Çin mühüm dividendlər əldə edəcək ki, bu da beynəlxalq iqtisadi münasibətləri yeni keyfiyyət mərhələsinə daşımaqla dünya nizamının düzgün formalaşmasında özünü göstərəcək.



Nail ƏSGƏROV

# Ekologiya və təbii sərvətlər naziri Naxçıvan Muxtar Respublikasına səfər edib




İyunun 11-də Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər. Ulu Öndərin xatirəsini ehtiramla anıblar.



# Ali Məclisin deputatı Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin komitə iclasında iştirak edib

İyunun 9-da Finlandiyanın Kouvola şəhərində Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Sosial İnklüzivlik və İnsan Ləyaqəti Komitəsinin iclası keçirilib. İclasda Azərbaycan nümayəndə heyətinin tərkibində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Xumar Məmmədova da iştirak edib.

İclasın gündəliyinin əsas məsələlərindən biri “Avropada regional miqrasiya axını: səbəblərin aradan qaldırılması və kənd icmaları üçün yeni imkanların yaradılması” mövzusunda hesabatın yekdilliklə qəbul edilməsi olub. Hesabat 2026-cı ilin oktyabr ayında keçiriləcək Konqresin 51-ci sessiyasında daha geniş müzakirə olunacaq.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# Naxçıvanın iqtisadi inteqrasiyasında yeni mərhələ



Azərbaycan iqtisadiyyatının qarşısında duran əsas vəzifələrdən biri neft gəlirlərindən asılılığın azaldılması və qeyri-neft sektorunun dayanıqlı inkişafının təmin edilməsidir. Prezident İlham Əliyevin imzaladığı “Qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və daşıma xərclərinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərman məhz bu məsələnin həllinə yönəlmiş mühüm iqtisadi sənəddir.

Fərmana əsasən Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracı zamanı çəkilən nəqliyyat xərclərinin mühüm hissəsi dövlət tərəfindən kompensasiya ediləcək. Belə ki, məhsullar dəmir yolu, hava, dəniz və ya Azərbaycan qeydiyyatlı avtomobil nəqliyyatı vasitəsilə daşındıqda sahibkarın ödədiyi nəqliyyat xərcinin 70 faizi geri qaytarılacaq. Xarici ölkə qeydiyyatlı avtomobillərdən istifadə edildikdə isə bu göstərici 50 faiz təşkil edəcək. Bu mexanizm xüsusilə uzaq bazarlara çıxmağa çalışan ixracatçılar üçün ciddi stimuldur. Azərbaycan məhsulları ənənəvi olaraq yaxın coğrafiyalarda yerləşən bazarlarda təmsil olunur. Lakin Asiya, Afrika və uzaq Avropa bazarlarına çıxış zamanı daşıma məsafələrinin uzunluğu əlavə maliyyə yükü yaradır. Yeni dəstək mexanizmi həmin maneələri qismən aradan qaldıraraq ixracın coğrafiyasının genişlənməsinə şərait yaradır.

Fərmanın ən diqqətçəkən hissələrindən biri Naxçıvan Muxtar Respublikası ilə bağlı müddəalardır. Sənəddə qeyd olunur ki, Naxçıvanda istehsal olunan məhsulların Azərbaycanın digər ərazilərinə çatdırılması əlavə nəqliyyat xərcləri yaradır. Bu səbəbdən dövlət həmin daşımaların da 70 faizini subsidiya etməyi nəzərdə tutur. Bu qərar Naxçıvan sahibkarlarının ölkə bazarlarına çıxış imkanlarını genişləndirə, muxtar respublikada istehsalın həcmini artıraraq yeni investisiyaların cəlb edilməsinə təkan verə bilər. Xüsusilə kənd təsərrüfatı, qida sənayesi və emal sektorunda fəaliyyət göstərən müəssisələr üçün bu dəstək mühüm əhəmiyyət daşıyır.

Fərmanın tətbiq müddətinin 2026-cı ildən başlayaraq 2036-cı ilədək nəzərdə tutulması onun qısamüddətli təşviq paketi deyil, uzunmüddətli iqtisadi strategiyanın elementi olduğunu göstərir. On il ərzində davam edəcək dəstək proqramı sahibkarlara investisiya planlarını daha inamla qurmağa, istehsal güclərini artırmağa və xarici bazarlara çıxış üçün uzunmüddətli müqavilələr bağlamağa imkan verəcək. Yeni Fərman Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış mühüm addımlardan biri kimi qiymətləndirilməlidir.

**Canməmməd CANMƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

# İxracatçılara yeni dövlət dəstəyi: Naxçıvan sahibkarları üçün əlavə imkanlar

Dövlət başçısının 2026-cı il 9 iyun tarixdə imzaladığı “Qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və daşıma xərclərinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərman yerli istehsalçılar, xüsusilə də Naxçıvan Muxtar Respublikasının sahibkarları üçün mühüm əhəmiyyət daşıyır.

Məlum olduğu kimi, qeyri-neft-qaz məhsullarının xarici bazarlara çıxarılması zamanı logistika və daşıma xərcləri istehsalçıların və ixracatçıların üzləşdiyi əsas problemlərdən biridir. Xüsusilə yeni bazarlara çıxış zamanı yaranan əlavə xərclər məhsulların rəqabət qabiliyyətinə ciddi təsir göstərir. Yeni dəstək mexanizmi məhz bu yükün azaldılmasına və yerli məhsulların xarici bazarlardakı mövqeyinin möhkəmləndirilməsinə xidmət edir.

İxrac olunan məhsulların gömrük dəyəri nəzərə alınmaqla əlavə dəstək mexanizmi də müəyyən edilib. Belə ki, avtomobil, dəmir yolu və hava nəqliyyatı ilə daşınan mallar üçün məhsulun gömrük dəyərinin 15 faizi, dəniz nəqliyyatı ilə daşınan mallar üçün isə 5 faizi həcmində əlavə dəstək hesablanacaq.

Fərmanın ən diqqətçəkən və strateji əhəmiyyətli müddəalarından biri Naxçıvan Muxtar Respublikasının istehsalçıları üçün nəzərdə tutulan xüsusi dəstək paketidir.



Sənədə əsasən Naxçıvan Muxtar Respublikasında istehsal edilmiş qeyri-neft-qaz mallarının Azərbaycan Respublikasının digər ərazilərinə quru nəqliyyatı vasitəsilə daşınması zamanı çəkilən xərclərin 70 faizi dövlət tərəfindən qarşılanacaq. Beləliklə, Naxçıvan sahibkarı məhsulunu Bakıya, Gəncəyə və ya ölkənin digər şəhərlərinə göndərərkən daşıma xərclərinin yalnız 30 faizini özü ödəyəcək.

Bu dəstək mexanizmi Naxçıvan sahibkarları üçün bir sıra mühüm üstünlüklər yaradır. İlk növbədə, logistika xərclərinin azalması məhsulların son qiymətinin daha rəqabətli olmasına imkan verəcək. Eyni zamanda həm daxili, həm də xarici bazarlara çıxış imkanları genişlənəcək, kiçik və orta sahibkarların fəaliyyətini genişləndirməsi üçün əlavə stimul yaranacaq. Bu proses region iqtisadiyyatının canlanmasına, yeni iş yerlərinin açılmasına və yerli istehsalın artmasına da müsbət təsir göstərəcək.

Beləliklə, dövlət bu addımla Naxçıvanın coğrafi məhdudiyyətlərindən irəli gələn iqtisadi çətinlikləri müəyyən dərəcədə kompensasiya etməyə çalışır. Bu təkcə subsidiya mexanizmi deyil, həm də regionun inkişaf potensialına verilən dəstəyin və dövlət qayğısının göstəricisidir.

Sənədin müddəaları 2026-cı il sentyabrın 1-dən qüvvəyə minəcək və 2036-cı il sentyabrın 30-dək daşınacaq məhsullara münasibətdə, yəni on il müddətində tətbiq olunacaq. Bu uzunmüddətli dövr sahibkarlara fəaliyyətlərini daha səmərəli planlaşdırmaq, yeni istehsal xətlərinə investisiya yatırmaq və xarici tərəfdaşlarla davamlı əməkdaşlıq qurmaq imkanı yaradacaq.

Xüsusilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən istehsalçılar üçün nəzərdə tutulan əlavə dəstək regionun iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Dövlət tərəfindən tətbiq edilən yeni mexanizm logistika xərclərinin əhəmiyyətli dərəcədə azalmasına, yerli istehsalçıların daxili və xarici bazarlarda mövqelərinin möhkəmlənməsinə və regionun iqtisadi potensialının daha dolğun reallaşmasına şərait yaradacaq.

**Teymur RZAYEV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

# Qeyri-neft-qaz məhsullarının ixracına dövlət dəstəyi Naxçıvanın iqtisadi inkişafına mühüm töhfədir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və daşıma xərclərinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanı yerli istehsalçıların xarici bazarlara çıxışına mühüm dövlət qayğısı olub, ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb. Mövzu ilə bağlı Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisadçı Əli Cabbarovla həmsöhbət olduq.

***– Əli müəllim, bu Fərmanın mahiyyəti və bütövlükdə, ölkə iqtisadiyyatı üçün əhəmiyyəti barədə nə deyə bilərsiniz?***

– Müasir dövrdə qlobal bazarlarda rəqabətin güclənməsi logistika sistemlərinin də səmərəsini ön plana çəkir. Ölkəmizdə istehsal olunan qeyri-neft-qaz mallarının çeşidinin və həcminin artırılması məqsədilə həyata keçirilən investisiya məzmunlu tədbirlərdən əlavə onların ixrac bazarlarına daşınması kimi mühüm logistik əməliyyatlar da məhsulun yekun maya dəyərinin formalaşmasına birbaşa təsir edir. Buna görə də logistika xərclərinin azaldılması bu məhsulların beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsində mühüm faktorlardan biri hesab edilir.

Sənədə əsasən Azərbaycan mənşəli qeyri-neft-qaz məhsullarının xarici bazarlara daşınması zamanı çəkilən nəqliyyat xərclərinin müəyyən hissəsi dövlət hesabına sahibkarlara dəstək kimi ödənilir. Bu yanaşma qeyri-neft-qaz məhsulları ixrac edən firmaların logistika xərclərinin azalmasına və onların beynəlxalq bazarlarda daha rəqabətli qiymət təklif etmələrinə imkan yaradır. Bu həm də qlobal qeyri-sabit iqtisadi şəraitdə yaranan problemlərdən əziyyət çəkən yerli istehsalçılarımızın dəstəklənməsi deməkdir.

***– Fərmanda Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş malların da Azərbaycan Respublikasının digər ərazilərinə çıxış imkanları üçün dövlət dəstəyi xüsusi olaraq vurğulanır. Bunu necə şərh edərsiz?***




– Coğrafi olaraq Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvanın iqtisadi və sosial inkişafı məqsədilə son illərdə imzalanmış mühüm dövlət sənədləri regionun ölkəmizin digər əraziləri ilə tarazlı inkişafına nail olunmasını hədəfləyir. Naxçıvanda rezident olan sahibkarlar üçün vergi güzəştlərinin tətbiqi və digər əhəmiyyətli qərarlar regionun ümumi inkişafına göstərilən dövlət qayğısını özündə əks etdirir.

Haqqında danışdığımız bu Fərman da qarşıdakı 10 il ərzində Naxçıvanda yerli məhsullar istehsal edən sahibkarların istehsal etdikləri məhsulların ölkəmizin digər yerlərinə daşıma xərclərinin müəyyən hissəsini dövlət hesabına ödənməsini nəzərdə tutmaqla bu sahədə yaranmış çətinliklərin həllini hədəfləyib. Naxçıvanda istehsal olunan qeyri-neft-qaz malları çeşidinə görə kifayət qədər geniş, keyfiyyətinə görə isə həmişə seçiləndir. Bu məhsulların ixrac bazarlarında da yer tuta bilməsi üçün bu daxili daşıma dəstəyi çox önəmli faktor olacaq.

***– Bəs bu dəstək mexanizmi necə işləyəcək?***

– Fərmanda bu dəqiq və detallı şəkildə göstərilmişdir. İlk olaraq burada şəffaflığın təmin olunması üçün ixrac olunan malın daşınması üçün çəkilmiş xərclərə görə ödənişin nağdsız qaydada həyata keçirilməsini qeyd etmək lazımdır. Daşınan yüklərə görə ödənişin Azərbaycan Respublikasında qeydiyyata alınmış avtomobil nəqliyyatı vasitələri ilə həyata keçirildikdə 70 faiz həcmində həyata keçirilməsi nəzərdə tutulur. İxrac edilən malın gömrük dəyərinin 15 faiz həcmində müəyyənləşdirilməsi isə bu dəstək mexanizmi vasitəsilə yerli sahibkarların və nisbətən az miqdarda mal ixrac edənlərin daha çox faydalanmasını özündə ehtiva edir. Naxçıvandan ixrac olunan məhsullar üçün hazırda yalnız quru yol imkanlarının olduğunu nəzərə alsaq Fərmanda qeyd olunan bu daşıma dəstəyinin, bütövlükdə, region iqtisadiyyatı üçün çox mühüm stimul olduğunu qeyd edə bilərik. Dəstək məbləğlərinin rüb ərzində sahibkarlara təqdim edilməsi də onların biznesinin operativ fəaliyyət göstərməsi üçün digər bir mühüm amil olacaq.

***– Müsahibə üçün sağ olun.***

**Rafiq TƏHMƏZ**

**Prezident İlham ƏLİYEV:**

*“Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.”*



# Çıraq işığından Türk dünyasına nur saçan Naxçıvana

### Bir yerdə yaşadıq, bir yerdə vuruşduq

***“Elə olurdu aylarla elektrik olmurdu, neft lampasından istifadə edirdik, onunla işləyirdik, onunla yaşayırdıq, qışda isitmə olmurdu. Camaat donurdu. Ağacların çoxunu kəsdilər ki, uşaqları xilas etsinlər. Mən o vaxt o ağır vəziyyətdə xalqla bir yerdə oldum. Və muxtar respublikanın əhalisinə dəfələrə demişdim, biz bir yerdə yaşayacağıq, bir yerdə vuruşacağıq. Və bir yerdə bu vəziyyətdən çıxacağıq”.***

Ulu Öndərin sözləridir, 90-cı illərdə Naxçıvanda yaşadığı günləri yada salarkən demişdi. Onun mübarizəsi və Azərbaycanı qurub-yaratmaq missiyası 1969-cu ildən başlasa da, ən çətin və keşməkeşli günlər 1990-cı ilin soyuq, qarlı yanvar gecəsinə təsadüf etdi. Yenidən doğulmaq və yaranmaq, illərdir, arzusunda olduğumuz müstəqil Azərbaycanı qurmaq bizə nəsib oldu həmin ildə. Bu həm də yaşamaq və yaratmaq mübarizəsi idi. Ən böyük mübarizə meydanı isə bura idi – qədim Naxçıvan. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin ətrafında sıx birləşən muxtar respublika sakinləri gələcəyə böyük ümidlə baxır, bütün məsələlərin öz həllini tapacağına inanırdılar. Hər qaranlıq gecənin bir işıqlı sabahı var, – deyirlər. Bizim nurlu sabahımız isə dahi rəhbərin gəlişi ilə açıldı.

Sovetlər birliyi son nəfəsini verir, gücü çatdığı qədər müqavimət göstərir, əsarət zəncirini daha da bərk sıxmaq üçün müstəqilliyə can atan azərbaycanlıların üstünə zirehli texnikalar, ağır silahlarla hücum edirdi. Bütün bunlardan cəsarətlənən ermənilər isə sərhədlərimizə hücum edir, torpaqlarımızı işğal etməklə insanlarımıza amansız divan tuturdu. Azərbaycanın digər bölgələrindən fərqli olaraq, Naxçıvanda vəziyyət tamam başqa idi. Erməni silahlılarının hücumlarına əliyalın sinə gərən oğullarımız düşmənə bir qarış belə torpaq vermirdi. Həmin vaxtlarda Moskvadan Bakıya qayıdıb, mərkəzi hakimiyyətin soyuq münasibətilə qarşılaşan Ulu Öndər öz yurduna – Naxçıvana gəlmişdi. Naxçıvanlıların dahi rəhbəri qurbanlar kəsərək qarşıladıqları həmin günlərdə mərkəzi hakimiyyətin gözü Ümummilli Lideri götürmədi. Çünki onlar Vətəni yox, öz mənafelərini düşünürdülər. Yurdumuza qayıdan dahi rəhbərin gəlişi ilə sanki Günəş doğuldu Vətənimizin başı üstündə. Bu həmin Günəş idi ki, onun şəfəqləri illər sonra da hər tərəfi nura qərq edəcəkdi. Bəli, Naxçıvanda buranın mərd insanları ilə bərabər soyuq, şaxtalı günlərdə, işıqsız, qazsız yaşayan əbədiyaşar liderin həmin illərdə burada çıraq işığında imzaladığı sərəncam və fərmanlar, xarici dövlətlərlə qurduğu diplomatik əlaqələr qədim Naxçıvanı işğaldan, yox olmaq təhlükəsindən qorudu.

Ulu Öndərimizin yurduna qayıtması hamıda – səngərdə döyüşən əsgərdə də, çörək növbəsində dayanan sakinlərdə də böyük ruh yüksəkliyi yaratdı. Bol-bəhərli günlərə isə çətin günlərdən sonra gəldik. Dərin zəkası, uzaqgörənliyi, tükənməz enerjisi və təhlil bacarığı görkəmli dövlət xadiminə imkan verirdi ki, ən çətin və çıxılmaz vəziyyətlərdə öz xalqı və Vətəni üçün mümkün variantın ən düzgününü seçib gərginliyi aradan qaldırsın. İlk olaraq düşmən hücumlarının qarşısı alındı, nizamlı ordu yaradıldı, qonşu dövlətlərlə diplomatik əlaqələr bərpa edildi. Ümummilli Liderimiz Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində çalışdığı illərdə mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul edib. O gəlişi ilə Naxçıvana yeni nəfəs gətirdi, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim diyarı dirçəltməyə başladı. Burada müasir Azərbaycanın təməli atıldı. Təkcə muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mayak rolunu oynayan qərarların qəbul edilməsinə nail olundu. Dahi rəhbər bu diyarda mübarizə aparan insanlarla birlikdə düşmənə sinə gərəndə Qarabağda, ümumilikdə, Azərbaycanın digər bölgələrində xaos vəziyyəti yaranmışdı. Xocalı soyqırımı, ardınca cənnət Şuşa və Laçın düşmənə peşkəş verilirdi. Bacarıqsız rəhbərlər düşmən hücumunun qarşısını almaq əvəzinə qeyri-qanuni silahlı birləşmələrlə üz-üzə gəlir, qardaş qırğınına yol açırdı. Bütün bunlar Birinci Qarabağ müharibəsində məğlubiyyəti qaçınılmaz edirdi. Çünki tarixboyu heç bir anti-milli hakimiyyət müharibədə qələbə qazana bilməmişdi. Azərbaycanda da eyni mənzərə müşahidə olundu. Xalq isə mətanətini itirməməyə çalışır, yenicə əldə etdiyi müstəqilliyi və torpaqlarımızı qorumaq üçün səylərini davam etdirirdi.

### Dövlətçiliyin xilas günü

Naxçıvanda baş verənləri yaxından izləyənlər, xalqın düşünən beyinləri bu çətin və xaos vəziyyətindən çıxış yolunu Ulu Öndərin hakimiyyətə qayıdışında gördü. Elə məhz buna görə də insanlar qəzet və televiziya vasitəsilə Ona müraciətlər edir, Naxçıvana gəlirdilər. Hətta Qarabağda döyüşlərdə əsir düşənlərin valideynləri Naxçıvana üz tutur, dahi rəhbərdən onlara kömək etməsini istəyirdilər. Xalqın səsinə, çağırışlarına, Vətənin düşdüyü vəziyyətə biganə qala bilməyən dahi rəhbər Bakıya qayıtdı və xalqın təkidli tələbi və səs çoxluğu ilə ölkə Prezidenti seçildi. Xalq öz oğlunu bağrına basıb Onu qorudu. Çünki yaxşı bilirdik ki, sovetlər dövründə belə erməni xainlərini susdurmağı bacaran insan idi Heydər Əliyev. Xalqın inamı və dəstəyi, dahi rəhbərin siyasi gücü, dərin zəkası, çətin vəziyyətlərdə verdiyi düzgün qərarlar günəş kimi nur saçdı yurdumuzun səmasına. Sonralar Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin bu mərhələsini belə xarakterizə edirdi: ***“Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyununda hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı”.***

### Naxçıvandan Şuşaya

Həmin illərdə Naxçıvandan başlanan yol Bakıdan keçib Şuşaya, Xankəndiyə uzandı. Bu xalq müasir Azərbaycanın təməlinin atılmasına şahid oldu, sonra daşların bir-bir necə yerinə qoyulduğunu gördük. Nə xoşbəxt bir nəsilik ki, 1990-cı ildə Naxçıvanda düyünlənən yumruğun dəmir kimi bərkiyib Vətən savaşında düşmənin başında şimşək kimi çaxmasına şahid olduq. Zaman bir daha böyük Heydər Əliyevin – o siyasət dahisinin bütün bəlalardan xilas edərək ayağa qaldırdığı Azərbaycanı əmin əllərə təslim etdiyini təsdiqlədi. Xalqına arxalanan Müzəffər Sərkərdə dünyaya qüdrətli ordusu, yenilməz siyasi-diplomatik gücü ilə meydan oxudu. Ulu Öndərimizin əsasını qoyduğu siyasətin, nurlu yolun uğurla davam etdirilməsi bizə Vətən müharibəsində Böyük Qələbəni bəxş etdi, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Ordumuz düşmənə sarsıdıcı zərbə vurdu, ərazi bütövlüyümüz bərpa olundu.

Prezident İlham Əliyev 2020-ci il noyabrın 10-da imzalanmış birgə Bəyanata qədim diyarla bağlı xüsusi bir maddəni – 9-cu bəndi salmaqla önümüzdəki illərdə muxtar respublikanın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevrilməsinə şərait yaratdı. Zəngilandan Naxçıvana dəmir yolu xəttinin və avtomobil magistrallarının tikintisi muxtar respublikada transmilli nəqliyyat proqramlarının və layihələrinin reallaşdırılmasına şərait yaradacaq. Bu da qədim diyarın geostrateji əhəmiyyətini daha da artırmaqla yanaşı, bir sıra mühüm məsələlərdə böyük nailiyyətlər qazanmağa imkan verəcəkdir. Zəngəzur dəhlizinin açılması ilə Naxçıvan həm də bizim üçün Avropaya qapı, Türk dünyası üçün isə ümid bağına çevriləcək. Bütün bunlar Ali Baş Komandanımızın dəmir iradə nümayiş etdirməsinin nəticəsidir.

**Ramiyə ƏKBƏROVA**

# Təhlükəsiz qida sağlam gələcəyin təminatıdır

*Müasir dövrdə qida təhlükəsizliyi insanların sağlam həyat tərzinin əsas şərtlərindən biri kimi xüsusi aktuallıq kəsb edir. Qida məhsullarının keyfiyyəti və təhlükəsizliyi yalnız fərdi sağlamlıq məsələsi deyil, eyni zamanda ictimai sağlamlığın qorunması baxımından strateji əhəmiyyət daşıyır. Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarına əsasən hər il milyonlarla insan qida mənşəli törədicilər vasitəsilə (bakteriya, virus, parazit, toksin və kimyəvi maddələr) xəstələnir, minlərlə ölüm halları müşahidə olunur. Qida mənşəli xəstəliklərə, əsasən, həssas əhali qrupu, xüsusilə azyaşlı uşaqlar yoluxur. Bu səbəbdən qida təhlükəsizliyi hər bir vətəndaşın diqqət və məsuliyyət tələb edən ümumi işinə çevrilməlidir.*

*Qida təhlükəsizliyi qida zəncirinin bütün mərhələlərində, habelə qida məhsullarının istehlakı zamanı insanların həyat və sağlamlığına zərər vurmasını istisna edən vəziyyətidir. Qida zənciri məhsulun ilkin istehsalından başlayaraq onun istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi mərhələlərini əhatə edir. Bu zəncirin hər hansı bir halqasında baş verən nöqsan ciddi fəsadlara yol aça bilər. Buna görə də yalnız nəzarət orqanlarının fəaliyyəti ilə kifayətlənmək düzgün deyil. İstehsalçılar, satıcılar və istehlakçılar da bu prosesdə fəal iştirak etməlidirlər.*

İstehsalçıların üzərinə düşən əsas vəzifə keyfiyyət standartlarına uyğun, təhlükəsiz məhsullar istehsal etməkdir. Müasir texnologiyaların tətbiqi, gigiyena qaydalarına riayət olunması və sertifikatlaşdırma proseslərinə ciddi yanaşma bu sahədə mühüm rol oynayır. Eyni zamanda satış məntəqələrində məhsulların düzgün saxlanılması və son istifadə tarixlərinə nəzarət də vacib amillərdəndir.

İstehlakçılar qida təhlükəsizliyi qaydalarına riayət olunmasında aktiv iştirak etməlidirlər. Onlar məhsul seçərkən diqqətli olmalı, etiket məlumatlarını yoxlamalı, saxlanma qaydalarına diqqət yetirməli və şübhəli hallarda müvafiq qurumlara məlumat verməlidirlər. Maarifləndirmə bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Qida Təhlükəsizliyi İnstitutunun əməkdaşları tərəfindən əhalinin qida təhlükəsizliyi istiqamətində maarifləndirilməsi mütəmadi olaraq davam etdirilir.

Müasir dövrdə qida məhsullarının çeşidinin artırılması ilə yanaşı, onların keyfiyyət göstəricilərinin, qidalılıq dəyərinin, enerjiliyinin yüksəldilməsinə, eləcə də insan orqanizmi üçün zərərli təsirlərinin aradan qaldırılmasına xüsusi əhəmiyyət verilir.

Müxtəlif amillərin təsiri ilə yanaşı, yaşadığımız mühitin çirklənməsi, kimyəvi preparatlardan istifadə edilməsi istehsal prosesi zamanı qida məhsullarının tərkibinə müxtəlif kənar maddələrin – ksenobiotiklərin düşməsinə səbəb olur. Ksenobiotiklər – canlı orqanizmlər üçün yad olan təbii birləşmələr, maddələr mübadiləsində iştirak etməyən kimyəvi maddələrdir. Bura dərman preparatları, pestisidlər, sənaye tullantıları, qida əlavələri və toksinlər daxildir. Onlar orqanizmdə toplanaraq metabolik pozğunluqlara və toksiki təsirlərə səbəb ola bilər. Qida maddələri ilə orqanizmə daxil edilən ksenobiotiklər insanda bir sıra çatışmazlıqların, qüsurların və xəstəliklərin baş verməsinə səbəb olur. Məhz buna görə bu məsələ alim və mütəxəssisləri daim düşündürür. Onlar çalışırlar ki, qida maddələrinə əlavə edilən qatqılar təbii, zərərsiz maddələrdən alınsın, ətraf mühitdən düşən kimyəvi maddələrin miqdarı xeyli azaldılsın. Lakin hələlik bu aktual problem həll edilməmiş qalmaqdadır.

Ksenobiotiklərin sayı ildən-ilə artır. Təkcə onu qeyd etmək kifayətdir ki, sənayedə süni yollarla alınan kimyəvi maddələrin sayı 10 milyondan çoxdur. Hava, su və qida maddələri ilə orqanizmə düşən bu maddələrin insanın sağlamlığına təsir mexanizmi heç də dünya alimləri tərəfindən birmənalı qarşılanmır. Alimlərin əksəriyyəti hazırda geniş yayılan onkoloji, mədə-bağırsaq, ürək-



damar, qan və digər xəstəliklərin əsas səbəbini qida maddələrinin tərkibinin kimyəvi maddələrlə çirklənməsində görürlər. Çünki insan orqanizminə düşən kənar maddələrin, xüsusilə ağır metalların, xlorlu üzvi birləşmələrin, nitratların və toksiki elementlərin əksəriyyəti qida maddələri ilə orqanizmə daxil olur.

Qida məhsullarında olan ksenobiotiklərin əksər hissəsinin, bilavasitə, özləri orqanizmə ziyanlı təsir göstərir. Amma elə ksenobiotiklər də vardır ki, onların digər maddələrlə reaksiyaya girməsi nəticəsində alınan ikinci, üçüncü, hətta sonrakı çevrilmələri nəticəsində əmələ gələn yeni birləşmələr ziyanlı təsir göstərir. Məsələn, 2-naftilamin ksenobiotikinin özü kanserogen deyildir və şiş əmələ gətirmir. Lakin onun 2-amin, 1-naftol metoboliti sidik kisəsində, qarın nahiyəsində və dəri altında xərçəng xəstəliyi əmələ gətirir, 2-naftilaminin başqa metoboliti 2-naftilhidrosilat da belə təsirə malikdir.

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 18 dekabr 2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Qida məhsullarında çirkləndirici maddələrin yolverilən maksimum miqdarına dair sanitariya normaları və qaydaları" ilə həmin çirkləndirici maddələrin miqdarı tənzimlənir. Orqanizmə düşmə mənbəyinə görə qida maddələrini çirkləndirən kənar qarışıqlar iki əsas qrupa ayrılır. Birincisi, qida məhsullarına təsadüfi yolla düşən kənar, yad maddələr aid edilir. Belə maddələrə kənd təsərrüfatının intensiv inkişafı məqsədilə işlədilən preparatlar – pestisidlər, herbisidlər, dezinfeksiyaedici maddələr, funqisidlər, insektisidlər, antibiotiklər və sair, eləcə də istehsal və məişət tullantılarının hesabına yaranan zəhərli maddələr, istehsal texnologiyasının pozulması nəticəsində məhsulda əmələ gələn toksiki birləşmələr və sair aid edilir. Bu maddələr orqanizmə təsiretmə vaxtına və sürətinə görə bir-birindən fərqlənir. Belə ki, bəziləri orqanizmə daxil olan kimi, bəziləri isə müəyyən bir vaxtdan sonra təsir göstərir. Məsələn, alma, üzüm, xiyar, çuğundur, pomidor və dənli bitkilərin yetişdirilməsi zamanı bir çox xəstəliklərə qarşı işlədilən "Benlat" preparatı orqanizmə daxil olduqdan sonra 6 ay müddətində hiss ediləcək dəyişikliklər yaratmır. Lakin 6 aydan sonra toxumluqda və qaraciyərdə olan asetilxolinesterezanın, 11 aydan sonra isə əsas ferment olan qlükoza-6-fosfatdehidrogenazanın fəallığını xeyli zəiflədir.

İkincisi, qida məhsullarına düşünülmüş şəkildə əlavə edilən qida əlavələridir. Burada məqsəd istehsal olunmuş məhsula əmtəə görünüşü vermək, saxlanma qabiliyyətini artırmaq, əlavə olaraq məhsulun dad-tam və ya iy göstəricilərinin yüksəldilməsini təmin etməkdən ibarətdir. Belə maddələrə konservantlar, boyalar, antioksidantlar, ətirli maddələr, fermentlər, fizioloji fəal maddələr, amin turşuları, mikroelementlər və s. aiddir.

Ölkəmizə dünyanın bir çox ölkələrindən müxtəlif çeşiddə qida məhsulları idxal olunur. Həm idxal olunan, həm də yerli istehsalçılar tərəfindən emal olunan qida məhsullarının etiketlərində "E" indeksli rəqəmlərin yazıldığını müşahidə edə bilərik. Bəs "E" indeksi nəyi göstərir? İstehlakçıların əksəriyyətinin qida məhsullarına əlavə edilən belə inqrediyentlər haqda məlumata malik olmadığını nəzərə alaraq bəzi məlumatların verilməsini məqsədə müvafiq hesab edirik. E 103, E 211, E 213, E 214, E 330, E 400 və s. çoxlu sayda olan bu indeksli rəqəmlər qida məhsullarına qatılan qida əlavələrinin növünü göstərir. Bu tip inqrediyentlərin bir çoxunun əlavə edildiyi qida məhsullarından mütəmadi olaraq istifadə edildikdə baş gicəllənmə, baş ağrısı, mədə-bağırsaq pozğunluqları, qaraciyər xəstəlikləri və digər xəstəliklər meydana çıxır. İnkişaf etmiş ölkələrin çoxunda əhali etiketində belə indekslər olmayan məhsulların istehlakına daha çox üstünlük verirlər. İstənilən kimyəvi maddənin insan orqanizminə təsiri həmin orqanizmin fərdi xüsusiyyətləri ilə yanaşı, həm də həmin maddənin dozasından asılıdır. Demək olar ki, hər



bir qida əlavəsi, həmçinin digər toksik maddələr üçün eksperimental olaraq yolverilən gündəlik doza müəyyən edilir. Həmin dozanın aşılması neqativ nəticələrə səbəb olur. Yadda saxlamaq lazımdır ki, bir çox maddələr kumulyativ – orqanizmdə toplanmaq xüsusiyyətinə malikdir. Buna görə də son məhsulda qida əlavələrinin miqdarına istehsalçılar tərəfindən mütəmadi nəzarət olunmalı, onlardan məhsullarda lazımi texnoloji effekt əldə edilməsi üçün ehtiyac olan və hazır məhsullarda miqdarının yolverilən maksimal həcmindən çox olmayan miqdarda istifadə edilməlidir.

Qida əlavələri ilə bağlı ölkəmizdə normativ-hüquqi məsələlərin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 5 mart 2024-cü il tarixli qərarı ilə təsdiq edilmiş "Qida əlavələrinə dair sanitariya norma və qaydaları" qəbul edilmişdir. Bu normativ-hüquqi sənəd qida əlavələrinə dair beynəlxalq Codex Alimentarius standartı əsasında hazırlanmışdır. Bu sənəddə qida əlavələri "şirinləşdiricilər", "qida rəngləyiciləri", "rəng saxlayıcılar", "qoruyucular", "antioksidantlar", "emulqatorlar", "gel əmələ gətirənlər", "dad və aroma gücləndiriciləri", "parladıcılar", "nəmləndiricilər" və s. olmaqla, ümumilikdə, 27 sinifə ayrılıb. Sənəddə, həmçinin ölkəmizdə istifadəsinə yol verilən qida əlavələrinin siyahısı və onların istifadə şərtləri, qida əlavələrinin istifadəsinin maksimum miqdarı, etiketlənmə qaydaları öz əksini tapmışdır.

Son illərdə qida məhsullarının istehsalında istifadə olunan qida əlavələrinin orqanizmə təsiri haqda çoxlu yeni məlumatlar əldə olunur. Lakin təəssüflə qeyd edilməlidir ki, iqtisadi cəhətdən sərfəli sayılan, amma bioloji dəyərliliyi olmayan, orqanizmə mənfi təsir göstərən süni və sintetik əlavələrin işlədilməsi bu gün də davam etdirilir. Odur ki, idxal olunan və daxildə istehsal edilən qida məhsullarına əlavə edilən qida əlavələrinin toksikliyi dərindən öyrənilməli və işlədilməsinə ciddi nəzarət edilməlidir.

Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həyata keçirilən nəzarət tədbirləri və ictimai məlumatlandırma qida təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir. Lakin bu sahədə davamlı uğur yalnız bütün tərəflərin birgə qarşılıqlı fəaliyyəti ilə mümkündür.

Nəticə etibarilə, qida təhlükəsizliyi problemi təkcə bir qurumun və ya sahənin deyil, bütövlükdə cəmiyyətin ortaq məsələsidir. Sağlam gələcəyin təmin olunması üçün istehlakçılar da daxil olmaqla qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən subyektlər bu prioritet məsələyə ciddi yanaşmalı və üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmalıdır.

**Həsən MƏMMƏDOV**
*Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyi yanında "Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu" publik hüquqi şəxsin İdarə Heyətinin sədri, iqtisad üzrə fəlsəfə doktoru, dosent*

# Naxçıvanda taxıl biçininə başlanılıb

İyunun 6-da Naxçıvan Muxtar Respublikasında taxıl biçininə start verilib.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, ilkin biçin işləri Ordubad rayonunun Dəstə kəndində aparılır. Kənd təsərrüfatı istehsalçıları biçinə müasir kombaynlar cəlb etməklə məhsulun itkisiz və qısa müddətdə yığılmasını təmin etməyə çalışırlar.



Hazırda biçin aparılan sahədə məhsuldarlıq hər hektardan orta hesabla 30 sentner təşkil edir. Mütəxəssislərin hesablamalarına görə, mövsüm ərzində muxtar respublika üzrə taxıl sahələrində orta məhsuldarlığın 32-35 sentner/hektar səviyyəsində olması gözlənilir.

Qeyd edək ki, ötən il Naxçıvan Muxtar Respublikasında taxıl üzrə orta məhsuldarlıq 25,1 sentner/hektar olub. Bu il əlverişli hava şəraiti və aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsi nəticəsində məhsuldarlığın daha yüksək olacağı proqnozlaşdırılır.

Taxıl biçininin növbəti günlərdə digər rayonlarda da geniş vüsət alacağı gözlənilir.

# Naxçıvanda Vəkillər Kollegiyası və Mediasiya Şurasının birgə təşkilatçılığı ilə regional konfrans keçirilib



İyunun 8-də Naxçıvanda Azərbaycan Respublikası Vəkillər Kollegiyası və Mediasiya Şurasının birgə təşkilatçılığı ilə "İnsan hüquqlarının qorunmasında vəkilliyin və mediasiyanın rolu" mövzusunda regional konfrans keçirilib.

Tədbirdə Vəkillər Kollegiyasının sədri Anar Bağırov, Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov, hər iki qurum rəhbərinin başçılıq etdiyi nümayəndə heyətləri, Naxçıvan Muxtar Respublikasının rəsmi şəxsləri, hakim və vəkillər, mediatorlar, müəllimlər, tələbələr, eləcə də kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak ediblər.

Mərasimdən əvvəl nümayəndə heyətləri Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucaldılan abidəsini ziyarət edib. Abidə önünə gül dəstələri düzülüb, Ümummilli Liderin əziz xatirəsi dərin ehtiramla yad olunub.

Konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Açılış nitqi ilə çıxış edən Vəkillər Kollegiyasının sədri Anar Bağırov Ümummilli Lider Heydər Əliyev tərəfindən 28 dekabr 1999-cu ildə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanun imzalandığını, Azərbaycan tarixində ilk dəfə vəkilliyin tam müstəqil, hakimiyyətin heç bir qolundan asılı olmayan bir təsisat kimi formalaşdığını və həmin dövrdə qəbul olunmuş prosessual qanunvericiliyə əsasən vəkillik çəkişmə prinsipi çərçivəsində prosesin bərabərhüquqlu peşə birliyinə çevrildiyini bildirib.

Sədr qeyd edib ki, Vəkillər Kollegiyası ilə Mediasiya Şurası arasında qurulan səmərəli əməkdaşlıq nəticəsində mediator olan vəkillər və vəkil olmayan mediatorlar arasında qarşılıqlı hörmətə və peşəkar həmrəyliyə əsaslanan münasibətlər formalaşıb.

Azərbaycan Respublikası Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilov bildirib ki, mediasiya xidmətlərindən istifadə zamanı Vəkillər Kollegiyasının üzvlərinin təmsil etdikləri tərəflərin barışıq sazişlərinin müddəaları və məzmunu üzrə keyfiyyətli hüquqi yardım göstərmələri əsas insan hüquq və azadlıqlarının müdafiəsində çox mütərəqqi addımdır.

Hazırda ölkə üzrə 423 mediator və 75 mediasiya təşkilatı fəaliyyət göstərir. 2026-cı ildə barışıq sazişinin sayı 1794-dür. Probasiyada isə 6 barışıq sazişi qeydə alınıb.

Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Hüseyn Səfərov çıxış edərək bildirib ki, insan hüquqlarının müdafiəsində dövlət qurumları ilə vəkillik institutunun əməkdaşlığı da mühüm rol oynayır. Bu baxımdan, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi ilə Vəkillər Kollegiyası arasında qurulmuş səmərəli əməkdaşlıq xüsusi qeyd olunmalıdır. Qanunvericiliyin tələblərinə uyğun olaraq hazırda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin nümayəndəsi də kollegiyanın İxtisas Komissiyasının üzvü qismində iştirak edir.

Sonra Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının son 3 il ərzində həyata keçirdiyi fəaliyyətləri əks etdirən videohesabat nümayiş olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavini Müşfiq Həsənov "Ədalət mühakiməsində vəkilliyin və mediasiyanın rolu" mövzusunda çıxış edərək vəkilliyin əsas missiyasının insan hüquq və azadlıqlarının müdafiəsini həyata keçirmək olduğunu, ədalət mühakiməsinin həyata keçirilməsində vəkillərin mühüm rol oynadığını söyləyib.

Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədri Vüsal Həsənov "Mediasiya proseslərində baxılan mübahisələrdə insan hüquqlarının qorunmasında vəkilin iştirakı ilə bağlı məsələlər: keyfiyyətli hüquqi yardım, keyfiyyətli mediasiya barışıq sazişinin əsasıdır" mövzusunda çıxış edib.

Naxçıvan Mediasiya Təşkilatının direktoru Yusif Həsənov görülən işlər və təkliflər barədə danışıb.

Naxçıvan Şəhər "Asan" Vəkil Bürosunun vəkili Şəbnəm Hüseynova "Mülki mübahisələrdə insanların hüquqlarının müdafiəsində mediasiya proseslərinin həyata keçirilməsində vəkilin rolu" mövzusunda çıxış edib.

Sonra müzakirələr aparılıb, iştirakçıları maraqlandırılan suallar cavablandırılıb.

# Yeni laboratoriyalar şagirdlərin elmi biliklərinin inkişafına xidmət edəcək





Xəbər verdiyimiz kimi, 2026-cı il aprelin 10-da Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə bp Azərbaycan şirkəti arasında əməkdaşlıq sazişi imzalanıb. Təhsil sahəsinin inkişafına yönələn əməkdaşlıq çərçivəsində ümumi təhsil və peşə təhsili müəssisələrində laboratoriya və emalatxanaların yaradılması nəzərdə tutulub. İmzalanmış əməkdaşlıq sazişi çərçivəsində Heydər Əliyev adına tam orta məktəbdə və Naxçıvan Qızlar Liseyində yeni laboratoriyalar yaradılıb. Yeni tədris ilində istifadəyə veriləcək laboratoriyalar şagirdlərin nəzəri biliklərini praktik bacarıqlarla möhkəmləndirməsinə geniş imkanlar yaradacaq.

Biz də yaradılan yeni laboratoriyalarla yerində tanış olmaq üçün hər iki təhsil müəssisəsində olduq və müəllimlərin fikirlərini öyrəndik.

Heydər Əliyev adına tam orta məktəbin kimya müəllimi Nailə Qasımova bildirdi ki, təhsil müəssisəsində müasir kimya laboratoriyasının yaradılması tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verəcək. Onun sözlərinə görə, yeni şərait şagirdlərə nəzəri biliklərini praktik fəaliyyətlə əlaqələndirmək, müxtəlif təcrübələr aparmaq və fənni daha dərindən mənimsəmək imkanı yaradacaq.





Müəllim qeyd edib ki, laboratoriya zəruri kimyəvi maddələr və avadanlıqlarla təchiz olunub. Təhlükəsizlik qaydalarına əməl olunması məqsədilə xüsusi soruducu şkaf quraşdırılıb, əyani vəsaitlərə uyğun olaraq məlumatlandırıcı plakatlar yerləşdirilib. Nailə Qasımovanın sözlərinə görə, yeni tədris ilindən etibarən kimya fənni üzrə praktik məşğələlərin və dərslərin laboratoriya şəraitində təşkili nəzərdə tutulur ki, bu da şagirdlərin fənnə marağının daha da artmasına şərait yaradacaq.

Laboratoriyaların tədris prosesindəki rolundan bəhs edən Qızlar Liseyinin kimya müəllimi Elmira Hüseynli də yaradılan şəraiti yüksək qiymətləndirib. O bildirdi ki, təhsil müəssisəsi uzun illərdir, qazandığı uğurlar və yetişdirdiyi məzunlarla muxtar respublikanın inkişafına öz töhfəsini verir. Onun sözlərinə görə, liseyin şagirdləri indiyədək daha məhdud laboratoriya imkanları şəraitində belə yüksək nəticələr əldə etməyi bacarıblar.



"Mən düşünürəm ki, yaradılan yeni laboratoriya şəraiti mövcud uğurlarımızın davamlılığını təmin etməklə yanaşı, onların daha da artmasına zəmin yaradacaq. Müasir avadanlıqlar və zəngin tədris imkanları şagirdlərin kimya fənninə marağını artıracaq, onların nəzəri biliklərini praktik bacarıqlarla möhkəmləndirməsinə şərait yaradacaq", – deyə Elmira Hüseynli vurğulayıb.

Qeyd edək ki, laboratoriyalar müasir mebel avadanlıqları, sorucu şkaflar, təcrübə stolları, kimyəvi preparatlar, xammal kolleksiyası, müxtəlifölçülü kolba və sınaq şüşələri ilə təchiz olunaraq müasir tədris şəraiti yaradılıb.

✍ **Zəhra VƏLİYEVA**

# Şərurda kartof yığımına başlanılıb

Diyarımızın ən böyük aqrar bölgələrindən biri olan Şərur rayonunda kartofçuluq ənənəvi və aparıcı təsərrüfat sahələrindəndir.

Münbit torpaqlar, kənd adamlarının zəngin təcrübəsi və dövlət dəstəyi bu sahədə yüksək nəticələrin əldə olunmasına imkan yaradır.



Ötən il rayonda həyətyanı sahələr də daxil olmaqla, 589 hektar ərazidə kartof əkilib, aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi nəticəsində 17 min 825,8 ton məhsul tədarük olunub.

Bu il də kartof istehsalının artırılması məqsədilə əkin sahələri genişləndirilib. Belə ki, həyətyanı torpaqlar da daxil olmaqla, ümumilikdə, 746,41 hektar sahədə kartof əkini aparılıb. Fevral ayında əkilən sahələrdə artıq məhsul yığımına başlanılıb.

Rayonun kəndlərində məhsuldar toxum sortlarından istifadə olunub, əkin sahələrində aqrotexniki qaydalara ciddi əməl edilib. Müasir suvarma sistemlərinin tətbiqi və qabaqcıl becərmə üsullarından istifadə məhsuldarlığın daha da artırılacağına əminlik yaradır.

Qeyd edək ki, Şərur rayonunda istehsal olunan kartof muxtar respublika əhalisinin bu vacib ərzaq məhsuluna olan tələbatının ödənilməsində mühüm rol oynayır. Hər il minlərlə ton məhsul bazar və yarmarkalara çıxarılaraq istehlakçılara təqdim edilir.



# Unudulmaz xatirələrin sonuncu zəngi

**Orta məktəb illəri... Bu sözləri xatırlayanda ürəyim hələ də yumşalır. Sanki zamanın tozu çökmüş köhnə dəftərlərin səhifələri qulaqlarımda xışıldayır. Həyətdəki uşaq səsləri, sinif pəncərəsindən süzülən Günəş işığı və lövhədə yazılan misallar, məsələlər hələ də gözlərimdə canlanır. İlk dəfə məktəbə qədəm qoyduğumuz o sehrli səhər... Kiçik əllərimizdə rəngarəng çiçəklər, gözlərimizdə həm böyük maraq, həm də qorxu ilə qarışmış həyəcan. Valideynlərimizin isti əlini buraxıb sinif qapısından içəri addım atanda içimizdəki o körpə ruh birdən darıxır və boğazımız düyünlənirdi. "Ana, getmə..." – deyə gözlərimizdən yaş süzülən o anlar indi də həyatımızın ən əziz xatirəsinə çevrilib. Çünki o ilk ayrılıq, həyatın ən böyük dərsi idi; böyümək, yeni dünyaya qədəm qoymaq və öz ayaqların üzərində dayanmaq dərsi.**



Günlər keçdikcə müəllimlərimizin mehriban səsi, səbirli baxışları, bəzən də sərt, amma həmişə qayğı dolu sözləri bizim üçün ikinci bir ailəyə çevrildi. Onlar, sadəcə, əlifba öyrətmirdilər, həyatın əsas dəyərlərini, dostluğu, əməyi və məsuliyyəti aşılayırdılar. Əlimizdəki qiymətlərin sevinci və kədəri ilə birlikdə böyüyürdük. Bəzən "beş" alıb evə qaçanda, dəftəri qaldırıb nənəmizə, babamıza, anamıza göstərmək... O anlarda evin içi nur kimi dolurdu. "Baxın, beş almışam!" deyə qışqıranda onların gözlərində parıldayan qürur bizim üçün ən böyük bayram idi. Bəzən də "iki"nin acısı ilə başımızı aşağı salıb gələndə valideynlərimizin anlayışı, müəllimlərimizin "Yenidən cəhd et", – deyə ruhlandıran sözləri bizi ayağa qaldırırdı. O sadə qiymətlər, o kiçik sevinclər indi də ürəyimizi isidir, çünki onlar təkcə rəqəm deyil, uşaqlığın təmiz, saf hissləri idi.

İbtidai sinif bitəndə sanki dünyamız genişləndi, gözlərimiz yeni bir işıqla doldu. Artıq hərflər, sadəcə, hərf deyil, cümlələr isə, sadəcə, söz deyildi. Təhsilin dərinliyini, biliklərin gücünü, elmə olan susuzluğu yavaş-yavaş dərk etməyə başladığımız illər... Orta məktəbin uzun dəhlizlərində dostlarımızla birlikdə böyüdük. Birlikdə gülüşdük, birlikdə dərsdən yayınmağın şirinliyini yaşadıq, birlikdə imtahan stresini keçirdik. Gecələr lampa işığında dərs oxuyarkən, səhər tezdən sinfə tələsərkən hər yeni fənn bir macəra idi. Tarixin səhifələrində itirdiyimiz qəhrəmanlar, riyaziyyatın sirli düsturları, ədəbiyyatın sehrli misraları... Hamısı bizi formalaşdırırdı.

Sonra universitetə hazırlıq həyəcanı başladı. Artıq məktəb forması bizə dar gəlirdi, ürəyimizdə isə böyük arzular qanad açırdı. İmtahanlara hazırlaşarkən keçirilən gecələr, dostlarla birlikdə "Birgə oxuyaq", – deyə qurduğumuz planlar, müəllimlərimizin əlavə dərs saatlarında bizə verdiyi dəstək... Hər şey bir addım irəli idi. Və nəhayət, o son zəng çalındı... Zəngin səsi sanki illərin yığdığı bütün xatirələri bir-birinə bağlayır, gözlərimizdən yaş gətirirdi. Məktəb həyatı bitirdi, amma ürəyimizdə əbədi yaşayacaqdı.

İndi geriyə baxanda minnətdarlıq hissi duyuram. O müəllimlər ki bizə təkcə bilik vermədilər, həm də insan olmağı öyrətdilər. O valideynlər ki hər "beş"də, hər "iki"də yanımızda oldular. O dostlar ki ən şirin xatirələrimizi birlikdə yaratdıq. Orta məktəb, sadəcə, təhsil ocağı deyildi, həyatımızın ən təmiz, ən işıqlı, ən saf səhifəsi idi. Orada öyrəndiyimiz hər şey, tökdüyümüz hər gözyaşı, gülümsədiyimiz hər an bizi bu günə, bu yetkinliyə gətirdi. Məktəb illəri bitdi, amma onun verdiyi istilik, ilham və xatirələr heç vaxt bitməyəcək. Hər kəsə belə isti, belə dərin və işıqlı uşaqlıq xatirələri arzulayıram. Çünki insan böyüdükcə anlayır ki, ən böyük sərvət məhz bu xatirələr, məhz bu sevgidir.

Bu il muxtar respublikada da 3698 şagird artıq məktəb dəhlizlərindəki xatirələrini son zənglə birlikdə yekunlaşdırır, sinif otaqlarının qapısını bir daha açmamaq üzrə son dəfə xatirələrlə bağlayırlar. Onlar bu gün o qapıdan çıxarkən arxaya dönsələr, yalnız bir bina yox, öz uşaqlıqlarını, öz ilk arzularını, öz ilk inamlarını görəcəklər. Son zəngin sədası yalnız bir məktəb ilini deyil, həyatın ən gözəl dövrünü bağlayır. Amma hər son, eyni zamanda yeni bir başlanğıcdır. Həmin gənclər bu gün qapını örtür, sabaha isə yeni bir qapı açırlar. Apardıqları ən qiymətli şey nə attestat, nə də gündəlikdir, həmin xoşbəxtlik onların ürəyinə həkk olunmuş ilk müəllim baxışı, ilk "Bacararsan" sözü və ilk dostluq gülüşüdür.

✍ **Rafiq TƏHMƏZ**



1991-ci il



2026-cı il

# İllər sonra ilk dəfə "Son zəng", bir məzun

İllər öncə, 1992-ci ildə Kəlbəcər şəhər tam orta məktəbinin məzunları 10 illik yolun sonuna çatacaqları, "Son zəng"in səsi ilə gənclik həyatlarına qədəm qoyacaqları günü həvəslə gözləsələr də, düşmənin fitnəsi onlara bu sevinci yaşamağa imkan vermədi. Həmin il Kəlbəcərin məktəblərində "Son zəng"in səsi yox, silah səsləri eşidildi. Neçə arzuları, neçə istəkləri yarımçıq qoydu müharibələr...

17 yaşlı Vəsilə Cəfərova da onlardan biri idi. İllər sonra yenə eyni yerdə, həmin məktəbdə keçmiş günləri yada salır Kəlbəcər şəhər 1 nömrəli tam orta məktəbin direktoru Vəsilə xanım: "Mənfur düşmən çox insanların arzularını yarımçıq qoydu. 1992-ci ilin məzunları idik biz. Həmin illərdə Laçın, Şuşa işğal edilmişdi, Kəlbəcər güclü hücuma məruz qalırdı. Qarabağda həmin il hələ məktəbli olan onlarla gənc səngərdə Vətənin müdafiəsində idi. Onların qismətinə Vətəni dardan qurtarmaq yazılmışdı. Aylarla gedən döyüşlərdə, çox təəssüf ki, Kəlbəcər xainlərin əli ilə peşkəş oldu düşmənə. 27 il dağı-daşı haray qopardı Kəlbəcərin. Pərən-pərən oldu kəlbəcərlilər. Kimisi yataqxanalarda, kimisi çadır şəhərciklərində 27 il yaşadı. Biz xəyallarımızdan əl çəkmədik, təhsilimizi davam etdirdik. Mən illərlə Bakı şəhərində, Bərdə, Yevlax rayonlarında müəllim, direktor işlədim. 27 il sonra ilk dəfə partada əyləşib "ana", "Vətən" sözlərini yazdığım məktəbə qayıtdım. Bu il may ayının 31-də, 1992-ci ildə bu məktəbdə "Son zəng"i səsləndirə bilməyən məzunlar azad olunmuş Kəlbəcərdə öz doğma məktəbinin qapılarını açdı və həmin "Son zəng"i səsləndirdi. Onların arasında mən də var idim. Bu gün fəxrlə dilə gətirirəm ki, məktəbin 114 şagirdindən birini, illər sonra ilk və tək məzunumuz Nəzrini müstəqil həyata yola salırıq. Dövlətimizə minnətdarlıq hissi ilə, şəhidlərimizin ruhu qarşısında baş əyərək".



Kəlbəcər şəhər 1 nömrəli tam orta məktəbin illər sonrakı ilk məzunu Nəzrin Atakişiyevanın anası Gülnar xanım məktəbin ingilis dili müəllimi, atası isə Kəlbəcər Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin əməkdaşıdır. O, Gəncə şəhərində dünyaya gəlib. Kəlbəcərsiz kəlbəcərli olaraq böyüyüb. Deyir ki, onun üçün Kəlbəcər bir nağıl, bir əfsanə olub. Orta məktəbə ilk addımını Gəncə şəhərində atanda, əli qələm tutub Vətən yazanda, Kəlbəcərin uca dağları, sıx meşələri, zəngin yataqları haqqında məlumat alanda bir gün buraya gələcəyinin xəyalı ilə böyüyüb. Nəhayət, vaxt gəlib, vədə yetişəndə, Kəlbəcər şəhərinə köçəndə, yurda qayıdanda buranın xəyallarında yaratdığı yerdən də gözəl olduğunu görüb: "İllər öncə susan zəng yenidən səslənir. Və mən 11-ci sinfi burada – doğma torpağımda, Kəlbəcərdə bitirirəm. Bu mənim ən böyük sevincim və unudulmaz anımdır. Vətəndən pay verməyib ömrünü torpağa qurban verən oğulların sayəsində bu gün yurdumuz dirçəlir. Mən də alitəhsilli xanım olaraq arzuma çatmaq yolunda çalışıb, doğma Kəlbəcərimə qayıdıb dövlətimizə xidmət edəcəm".



Bu gün azad edilmiş torpaqlarda fəaliyyətə başlayan 8 məktəb ilk məzunlarını yola salır. "Son zəng" Kəlbəcər şəhər Bəhmən Cəfərov adına 1 nömrəli tam orta məktəbin, Cəbrayıl rayon Horovlu kənd tam orta məktəbinin, Ağdam şəhər 1 nömrəli tam orta məktəbin, Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin, Ağdam rayon Kəngərli və Sarıcalı kənd tam orta məktəblərinin (Sarıcalı məktəbi Kəngərli məktəbinin sinif komplekti kimi), eləcə də Ağdərə rayon Həsənriz və Vəngli kənd tam orta məktəblərinin (Vəngli məktəbi Həsənriz məktəbinin sinif komplekti kimi) məzunları üçün çalınır.

İllərlə həsrətdə qalan bu torpaqlarda bu gün səslənən "Son zəng" yeni yolların başlanğıcı, yeni üfüqlərin, yeni zirvələrin fəthi, dövlətimizin Vətənin bütövlüyü uğrunda apardığı mübarizə yolunda qazandığı qələbələrin təntənəsidir.

✍ **Ramiyə ƏKBƏROVA**

# "Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər" seriyasının beşinci kitabı işıq üzü görüb




AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilovun "Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər" seriyasının beşinci kitabı çapdan çıxıb.

AMEA Naxçıvan Bölməsinin mətbuat xidmətindən bildirilib ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çap olunan kitabın elmi redaktoru AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyev, rəyçisi filologiya elmləri doktoru, professor İslam Qəriblidir.

Nəşrə müəllifin müxtəlif illərdə qələmə aldığı Naxçıvanın elmi, ədəbi və mədəni mühitinə həsr olunan məqalələri, təəssüratları, müsahibələri və "Gündəliy"indən bəzi parçalar daxil edilib.

Kitab "Elm", "Ədəbiyyatşünaslıq", "Mətbuat, maarif və mədəniyyət", "Müsahibə, çıxış, rəy və təəssüratlar" adlı dörd bölmədən ibarətdir.

Kitabın müxtəlif bölmələrindəki "Molla Nəsrəddin" ədəbi məktəbi ənənələri və çağdaş Azərbaycan ədəbiyyatı", "Mirzə Cəlilə həsr olunan dəyərli dissertasiya", "Hüseyn Cavidin irsi müasir Azərbaycan və dünya ədəbiyyatşünaslığında", "İki şair, bir ruh: Bəxtiyar Vahabzadə və Hüseyn Razi", "Naxçıvan Ordubadinin qələmi ilə", Naxçıvan torpağının yetirməsi Əli Səbri Qasımovun fəaliyyətinə həsr edilən "Mahir tərcüməçi" kimi yazıları XX əsr Azərbaycan ədəbi mühitini öyrənmək istəyənlər üçün dəyərli mənbələrdir.

Nəşrdə müəllifin müxtəlif illərdə Naxçıvan mediasındakı məqalə və çıxışları, həmçinin ilk dəfə olaraq oxuculara təqdim edilən yazıları da yer alıb. Bu mənada, "Naxçıvandan oxucu məktubu", "Bir xatirənin izi ilə", "Mavi ekran qarşısında", "Görkəmli alimi anarkən" məqalələri böyük maraq doğurur. "Fərman Xəlilovun Gündəliyi"ndən seçmələr adlı hissədə isə müəllifin müxtəlif illəri əhatə edən xatirələri, müşahidə və təəssüratları diqqəti cəlb edir.

Müəllifin çoxşaxəli elmi və publisistik yaradıcılığı oxucular üçün zəngin bilik mənbəyidir.

# Biz gedirik, ancaq qalır ruzigar, biz ölürük, əsər qalır yadigar

## *Elə parladın ki, söndü günəş*



Yaz aylarında Şərqdə bir günəş doğdu. O günəş ki Naxçıvanın mədəniyyətindən bəhs edən şahəsər... Şəhərin köksündə qanad açan bir göyərçin. O göyərçin ki qanadları altında nəfəs alan ağacları qoruyan bir ana... İllərin izini özündə daşıyan mirvari. O mirvari ki parlayanda sönür günəş. Şairlərə ilham, rəssamlara zövq, yazarlara mənbə, bəzən də iki gəncə şahid, sirlərlə dolu xəzinə...

Önündə dayanmışam, hüsnünü gəzir gözlərim. Qoy naxışlarında yorulsun xəyallarım, ülviliyindən dirçəlsin arzularım. Həyat tapsın buza dönmüş duyğularım... Səni seyr edənlərin nəzərləri mənim kimi onbucaqlı gövdənin üzərindəki həndəsi naxışlarda, bir labirint dəymiş kimi itsin. Qoy kitabə kəmərinin gizli sirrini axtarsınlar, gün düşəndə bərq vuran günbəzində işıq yolu tapsınlar. Hər kəs hər küncün pıçıldadığı tarixi eşitsin, göy üzünü xatırladan firuzəyi kaşılara toxunub heyran qalsın.

Gəl birlikdə axtaraq bu abidənin günümüzədək hansı fırtınalardan keçib necə gəlib çatdığını. Qoy xalq arasında dolaşan əfsanələr, nənələrin söylədiyi rəvayətlər cavab versin bizlərə. Xəbər alaq Atabəy Şəmsəddin Eldənizdən, Cahan Pəhləvandan... Soruşaq bu əsəri, sadəcə, kərpiclə, palçıqla deyil, riyazi bir dəqiqlik və sonsuz bir sevgi ilə toxuyan memar Əcəmidən. O Əcəmi ki bir qadına, bir anaya olan dərin ehtiramı daşın yaddaşına əbədi həkk etdi.

Naxçıvanın yerdəki ulduzu! De görüm, niyə arabir belə qəmginsən? Niyə hərdən başının üstünü alır qara buludlar? Bəzən səmaya uzanıb Uca Tanrı ilə, günəşlə həmsöhbət olursan tənhalığında. Amma yenə də gülürsən, hey sevinirsən keçən bayramlarda, rəngli festivallarda, şəhərin şən gurultusunda...

Önündə dayananda zaman sanki dayanır. Gözəllik bəzən gizlənməyi sevir. Bu gün sən də sanki incə bir tül pərdə arxasında gizlənmisən. 840 illik bir möcüzə olaraq hələ də nəfəs alırsan. Memar Əcəminin dühası indi müasir ustaların əllərində yenidən cilalanır. Sən indi yeni baharını yaşayırsan. Aparılan bərpa işləri tarixin o solmuş sətirlərini yenidən yazmaq, daş yaddaşımızı gələcəyə sağ-salamat ötürmək cəhdidir.

Gör neçə minilliyin təcəssümü, neçə dövrün şahidisən həzin nəğmələrin ahəngliyində. Səni Allaha səcdə edən bir möminə bənzətdim. Hüzurunda dayandıqca ruhum dincəlir, sanki divarlarından müqəddəs ayələrin sədası gəlir. Sən təkcə bir məqbərə deyilsən. Sən türk-İslam mədəniyyətinin möhtəşəm tacı, monumental bir tarix abidəsi, Əcəmi seyrəngahında vüqarla ucalan Möminə xatunsan! Sən bizim keçmişimizdən gələcəyimizə uzanan nurlu bir körpüsən.

**Səmayə RƏSULOVA**

# Bitməyən yurd həsrəti və ya qayıdışa addım-addım

*2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə tarixi görüş keçirildi. “Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar”. Bu fikirlər həm zalda, həm ekran qarşısında oturan qərbi azərbaycanlılarda böyük ümid və sevinc hissi yaratdı. Çünki bu fikirləri səmimi mühitdə keçən görüşdə Qarabağı bizə qaytaran Müzəffər Ali Baş Komandan, ölkə başçısı İlham Əliyev səsləndirmişdi. Bu görüşdən sonra “Qərbi Azərbaycana qayıdış” konsepsiyası hazırlandı. Bu ideya ətrafında qərbi azərbaycanlılar təşkilatlandı. Əsas məramı indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasını təmin etməkdən ibarət olan konsepsiyadan irəli gələn vəzifələrin həlli istiqamətində mühüm işlər həyata keçirilməkdədir. Bu qəbildən olan tədbirlər sırasında Naxçıvanda keçirilən festivallar əhəmiyyətliliyi ilə seçilir.*



İlk festival 2023-cü ilin noyabr ayında baş tutdu. Naxçıvan artıq III “Qərbi Azərbaycana qayıdış” festival-konqresinə hazırlaşır. İyunun 18-19-u tarixlərdə keçiriləcək növbəti festival Zəngəzur dəhlizi üzərində yerləşən qədim və zəngin tarixə malik Ordubad şəhərində təşkil olunacaq. Qərbi Azərbaycana həsr olunan festival və konqres Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçiriləcək. Festival-konqresin əsas məqsədi Ermənistan Respublikasının inzibati sərhədləri daxilindəki qədim yurd yerlərimiz olan Qərbi Azərbaycan torpaqlarında xalqımızın min illərlə yaratdığı mədəniyyəti təbliğ etməklə yanaşı, Qərbi Azərbaycana sülh yolu ilə qayıdış prosesinə elm və təhsil ictimaiyyətinin dəstəyini ifadə etməkdən ibarətdir.

“Bu festivallar bizdə həm də böyük ruh yüksəkliyi yaradır. Hər iki festivalın iştirakçısı olmuşam. III festivalı da səbirsizliklə gözləyirəm. Bu festival yalnız tarixi həqiqətləri çatdırmaqla kifayətlənmir, eyni zamanda dəyərlərimiz, adət-ənənəmiz, milli ruhumuz yaşadılır. Bu, bir daha göstərir ki, aradan illər keçsə də, biz öz doğma torpaqlarımızı unutmamışıq. O torpaqların bizə bəxş etdiyi ruhu, sevgini, dəyərləri bu gün də yaşadırıq”, – deyir Bəhman Ağayev. 1946-cı ildə Keşişkənd rayonunun Hors kəndində dünyaya göz açıb. Doğulduğu torpağı qarış-qarış gəzib, Ələyaz, Amağu, Zeytə kəndlərində təhsil alıb. O vaxt tam orta təhsili bitirmək üçün Qərbi Azərbaycanın 21 kəndindən uşaqlar Qovuşuğa gələrmiş. Bəhman Ağayev də Qovuşuqdan məzun olduqdan sonra təhsilini İrəvanda kənd təsərrüfatı texnikumunda davam etdirib. Danışdıqca xatirələr çözələnir, bəzən cümlələr arasında rabitə qırılır. Ürək doludur, ürək torpaq həsrətlidir. Gah üzünə təbəssüm qonur, gah da gözlərinə kədər çökür. Səbirlə dinləyirəm. Torpaq həsrəti balanın anasından ayrı düşməsi qədər kədərli və nisgillidir. Deyir, yenidən qayıda bilsəm, Ələyəzlə Qovuşuq kəndləri arasındakı Yastı bulaqdan doyunca su içərdim. Bəlkə, onda 23 yaşındaykən məcburən tərk etdiyim ana Vətənimin illərlə ürəyimdə gəzdirdiyim nisgilinə su səpəm.

Həmsöhbətim Bəhman Ağayev ailəsi ilə birlikdə 1969-cu ildə Şərur rayonunun Maxta kəndinə köçüb: “Atam Ağa Ağayev ermənilərin sonralar adını dəyişdirib Yeğednadzor etdikləri Keşişkənddə rayon partiya komitəsində işləyib. Orada yeganə rəhbər vəzifədə olan azərbaycanlı idi. Soydaşlarımızın problemi, qayğıları ilə maraqlanar, əlindən gələn köməyi əsirgəməzdi. Onların dayağı idi. Ona görə atamı nəinki vəzifədən, yurd yerindən uzaqlaşdırmaq üçün hər fitnə-fəsada əl atırdılar. Adamların güzəranını, yaşayışını çətinləşdirirdilər. Bununla da insanları öz doğma torpaqlarından köç etməyə məcbur buraxırdılar. Və beləliklə, biz Maxta kəndinə köçdük”.

Qərbi Azərbaycan torpaqlarından sonuncu köçə və 1990-cı ilin Qanlı Yanvar hadisələrinə dözməyən atası Ağa kişi dünyasını dəyişir: “1988-ci ildən başlayan hadisələrə, doğma yurdlarından insanların didərgin salınmasına atamın ürəyi dözmədi. Son 200 ildə tarixi torpaqlarımıza köçürülən ermənilər bərəkətli torpaqlardan yaxşı mənada faydalanmaq, qonşuluq münasibətlərini saxlamaq yerinə tariximizi mənimsəyib, Azərbaycan xalqının min illər boyu yaratdığı abidələrə, dəyərlərə qarşı vandalizm siyasəti həyata keçirdilər. Dayaqlarını möhkəmləndirdikdən sonra insanları öz doğma, isti ocağından ayrı saldılar. Öz çirkin niyyətlərini Qarabağda da göstərdilər. Uzun illər insanlar torpaq həsrəti ilə yaşadı, torpaq həsrəti ilə dünyasını dəyişənlər oldu. Lakin bu gün Qarabağa və Şərqi Zəngəzura böyük köç davam edir. İnanırıq ki, biz də öz doğma torpaqlarımıza qayıdacağıq. İllər keçər, qərinələr ötər, lakin yurd nisgili heç zaman bitməz. Ermənilər yer adlarımızı dəyişsələr də, tarixi həqiqəti dəyişə bilməzlər. Tarix göstərir ki, Qərbi Azərbaycan torpaqları öz sinəsində Azərbaycançılıq möhürü daşıyır. Və biz öz avtomobilimizlə torpaqlarımıza qayıdacağıq. Addım-addım o günə doğru gedirik”.

**Ruhiyyə RƏSULOVA**



# "Azərbaycan Mədəniyyəti – 2040":
## Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası
## mədəni irsin qorunmasının təməl daşıdır



Azərbaycan mədəniyyəti, xüsusilə milli musiqi mədəniyyəti xalqın tarixi yaddaşını, mənəvi dünyasını və milli kimliyini formalaşdıran əsas dayaqlardan biridir. Qədim türk etno-mədəni mühitindən qaynaqlanan Azərbaycan musiqisi əsrlərboyu şifahi ənənə, ustad-şagird məktəbi və zəngin yaradıcılıq təcrübəsi vasitəsilə inkişaf edərək bu gün dünya miqyasında tanınan bənzərsiz mədəni irsə çevrilib. Muğam sənəti, xalq musiqisi janrları və klassik bəstəkarlıq məktəbi milli musiqi mədəniyyətimizin əsas mənbələri kimi xalqımızın tarixi-mənəvi varlığını dolğun şəkildə ifadə edir.

Azərbaycan milli musiqisinin formalaşması və inkişafı təsadüfi deyil, tarixən dövlətçilik düşüncəsi və milli özünüdərk prosesi ilə vəhdətdə baş verib. Müstəqillik dövründə Azərbaycan milli musiqisinin qorunması və inkişafı istiqamətində həyata keçirilən dövlət siyasətinin ideya və strateji əsasları Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev milli mədəniyyəti, xüsusilə də musiqi sənətini xalqın mənəvi varlığının, tarixi yaddaşının və dövlətçilik şüurunun ayrılmaz tərkib hissəsi kimi qiymətləndirir, bu sahənin inkişafını milli təhlükəsizlik və ideoloji sabitlik kontekstində dəyərləndirirdi. Onun ölkəyə rəhbərliyi dövründə Azərbaycan musiqisi, muğam sənəti, aşıq yaradıcılığı və klassik bəstəkarlıq məktəbi sistemli şəkildə dövlət qayğısı ilə əhatə olunmuş, görkəmli sənətkarların yaradıcılığı yüksək səviyyədə qiymətləndirilmişdir.

Bu siyasi və ideoloji xəttə uyğun olaraq müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli mədəniyyətə, eləcə də musiqi və muğam sənətinə göstərdiyi diqqət və qayğı xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən mədəni proqramlar və layihələr milli musiqi irsinin müasir dövrün tələblərinə uyğun inkişafına real zəmin yaradır.

Azərbaycan mədəniyyətinin tərkib hissəsi olan milli musiqi mədəniyyətinin beynəlxalq miqyasda tanıdılmasında və muğam sənətinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri ayrıca vurğulanmalıdır. Onun təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən muğam festivalları, elmi-praktik layihələr, tədris və nəşr proqramları milli musiqi mədəniyyətimizin sistemli qorunmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir. Məhz bu siyasi və mədəni kontekst daxilində "Azərbaycan Mədəniyyəti – 2040": Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası milli irsin qorunması və inkişafı üçün strateji yol xəritəsi rolunu oynayır. Konsepsiya milli musiqi irsinin müasir texnologiyalar vasitəsilə sənədləşdirilməsini, tədris sisteminin gücləndirilməsini, beynəlxalq mədəni inteqrasiyanı və yaradıcı sənayelərin inkişafını əsas prioritetlər kimi müəyyən edir. Bu sənəd mədəniyyəti yalnız keçmişin mirası kimi deyil, gələcəyə yönəlmiş dinamik inkişaf resursu kimi təqdim edir.





Müasir dövrdə rəqəmsal texnologiyaların mədəniyyət sahəsinə daxil olması yeni imkanlarla yanaşı, milli kimliyin qorunması baxımından müəyyən çağırışlar da yaradır. "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyası bu çağırışlara cavab olaraq ənənə ilə müasirlik, tarixlə innovasiya arasında tarazlığın qorunmasını əsas prinsip kimi irəli sürür. Bu yanaşma Azərbaycan musiqi mədəniyyətinin tərkib hissəsi olan Naxçıvan musiqi mühitində də öz real əksini tapır.

Naxçıvanda da milli-mənəvi dəyərlərin qorunması, musiqi və folklor irsinin sistemli şəkildə yaşadılması, yaradıcı mühitin gücləndirilməsi və mədəni potensialın regional inkişaf strategiyalarına inteqrasiyası sistemli şəkildə davam etdirilir. Naxçıvan musiqi mədəniyyəti tarixən Azərbaycan milli musiqi irsinin ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, özünəməxsus ifa üslubu və yaradıcılıq mühiti ilə seçilir. Muğam və aşıq sənəti, xalq musiqisi nümunələri və klassik ifaçılıq ənənələri nəsildən-nəslə ötürülərək bu gün də canlı şəkildə yaşadılır.

Virtual muzeylər, elektron arxivlər və onlayn mədəni platformalar vasitəsilə regionun musiqi irsi artıq yalnız yerli auditoriya ilə məhdudlaşmır, beynəlxalq mədəni dövriyyəyə daxil olur. Nəticədə, mədəniyyət istehlak olunan dəyərdən çıxaraq istehsal edilən və ixrac potensialına malik strateji resursa çevrilir.

Konsepsiyanın əsas istiqamətlərindən biri olan kreativ sənayelərin inkişafı Naxçıvanda musiqi və səhnə sənətinin yeni mərhələyə keçidini stimullaşdırır. Bu baxımdan, Naxçıvan Dövlət Filarmoniyası, uşaq musiqi məktəbləri, Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi regionun mədəni həyatında aparıcı rol oynayan əsas mərkəzlərdir.

Xüsusilə Naxçıvan Dövlət Universiteti bu prosesdə mədəni-təhsil sintezinin uğurlu modelini təqdim edir. Universitetdə fəaliyyət göstərən NDU "Simfonik orkestri", "Xalq çalğı alətləri orkestri", "Qədim xalq çalğı alətləri ansamblı", "İnstrumental ansambl" və "Caz qrupu" musiqi irsinin qorunması ilə yanaşı, onun müasir janrlarla sintezini təmin edir. NDU nəzdində fəaliyyət göstərən musiqi alətləri laboratoriyası isə milli musiqi alətlərinin bərpası, elmi araşdırılması və təkmilləşdirilməsi baxımından mühüm strateji əhəmiyyət daşıyır.

Naxçıvan Musiqi Kollecinin orta ixtisas təhsili müəssisəsi kimi Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərməsi ilə formalaşan təhsil və yaradıcılıq əlaqələri regionda peşəkar musiqi kadrlarının hazırlanmasına, ustad-şagird ənənəsinin müasir təhsil modeli ilə uzlaşdırılmasına geniş imkanlar yaradır. Festival və konsertlər, gənc ifaçılar üçün müsabiqələr, ustad dərsləri və mədəni layihələr Naxçıvanın musiqi həyatını canlandırmaqla yanaşı, onu ölkənin mədəni inkişafında aparıcı mərkəzlərdən birinə çevirir.

Beynəlxalq festivallar, mədəniyyət günləri və mədəni diplomatiya çərçivəsində həyata keçirilən layihələr Naxçıvan musiqi mədəniyyətinin Azərbaycan brendi kimi təqdim olunmasına xidmət edir. "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyası çərçivəsində bu regionun mədəniyyəti artıq regional deyil, qlobal mədəni proseslərin fəal iştirakçısı kimi nəzərdə tutulur.

Nəticə etibarilə, "Azərbaycan Mədəniyyəti – 2040": Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası milli irsin qorunması ilə müasir inkişaf arasında strateji körpü rolunu oynayır. Bu konsepsiyanın uğurlu icrası məhz Naxçıvan kimi zəngin mədəni mühitlərdə həyata keçirilən real və sistemli addımlarla ölçüləcək. Naxçıvan musiqi mədəniyyəti akademik səviyyədə elmi-tədris potensialı, fəaliyyət göstərən musiqi kollektivləri və yaradıcı layihələr vasitəsilə 2040-cı ilə doğru Azərbaycan mədəniyyətinin aparıcı lokomotivlərindən biri kimi çıxış etmək gücünə malikdir. Bu model milli musiqi irsinin elmi əsaslarla qorunmasını, yaradıcı şəkildə inkişafını və gələcək nəsillərə ötürülməsini təmin etməklə yanaşı, dövlətin mədəniyyət siyasətinin regionlarda praktik və dayanıqlı reallaşmasının bariz nümunəsi kimi öz əhəmiyyətini qoruyacaq.

**Fətəli AXUNDZADƏ**
***Naxçıvan Dövlət Universitetinin əməkdaşı***



# Naxçıvanlı hakimdən Avropa çempionatında ilk beynəlxalq missiya



Bolqarıstanın Samokov şəhərində U-15 yeniyetmə güləşçilər arasında keçirilən Avropa çempionatı başa çatıb. Hər üç güləş növü üzrə (yunan-Roma, sərbəst və qızlar arasında) ölkəmizi təmsil edən milli komandalarımızın üzvləri gərgin mübarizə aparıblar. Turnirdə idmançıların çıxışları ilə yanaşı, qarşılaşmaların idarə edilməsində azərbaycanlı hakimlər də uğurla yer alıblar. Beynəlxalq dərəcəli hakimlər Sevinc Yusibova və Şamil Fəttayevlə yanaşı, Naxçıvan Şəhər Uşaq-Gənclər və İdman Məktəbinin müəllimi, milli kateqoriyalı hakim Nihad Muradov da bu mötəbər turnirdə ədaləti qoruyanlar sırasında olub.

Karyerasında ilk dəfə olaraq bu miqyasda nüfuzlu yarışa dəvət alan Nihad Muradov altı ilə yaxındır ki, milli kateqoriyalı hakim kimi fəaliyyət göstərir. O, ötən dövrdə ərzində müntəzəm olaraq Azərbaycan çempionatlarının və birinciliklərinin məsul görüşlərində hakim kimi çıxış edərək zəngin təcrübə toplayıb. Naxçıvan idman məktəbinin yetirməsi olan gənc hakimin qitə birinciliyinə cəlb edilməsi onun peşəkar fəaliyyətinə verilən yüksək qiyməti göstərir.

Samokovda keçirilən Avropa çempionatının ab-havası və beynəlxalq arenadakı ilk debütü barədə danışan Nihad Muradov qeyd edib ki, Avropa çempionatı kimi əhəmiyyətli bir idman səhnəsində Azərbaycanı təmsil etmək onun üçün həm böyük şərəf, həm də ciddi məsuliyyətdir. O bildirib ki, beynəlxalq səviyyəli yarışlarda hər bir qarşılaşmanın gərginliyi maksimum həddə olur və hakimdən yüksək diqqət, psixoloji dözümlülük və saniyələr daxilində dəqiq qərar qəbul etmək bacarığı tələb olunur. Həmin anlarda müəyyən həyəcan yaşansa da, ölkə daxili yarışlarda qazanılan çoxillik təcrübə və peşəkar vərdişlər bu maneəni qısa zamanda dəf etməyə imkan verib.

Milli kateqoriyalı hakim vurğulayıb ki, yerli çempionatlarda idarə etdiyi gərgin görüşlər onun beynəlxalq səviyyəyə keçidi üçün mühüm zəmin rolunu oynayıb. Bununla belə, Avropa çempionatında müxtəlif ölkələrin fərqli güləş üslubları və məktəbləri qarşılaşdığı üçün buradakı idarəçilik spesifik yanaşma tələb edir. Təcrübəli beynəlxalq dərəcəli hakimlərimizlə birgə fəaliyyət göstərmək və yarış çərçivəsində onlarla təcrübə mübadiləsi aparmaq da gənc hakimin peşəkarlığının artırılması baxımından mühüm əhəmiyyət kəsb edib.

Fəaliyyətini həm də Naxçıvan Şəhər Uşaq-Gənclər və İdman Məktəbində davam etdirən Nihad Muradov vurğulayıb ki, bu uğurun əldə olunmasında ona göstərilən dəstəyin böyük rolu olub. O, məktəbin direktoru Faiq İsgəndərova, Azərbaycan Güləş Federasiyası Hakimlər Komitəsinin sədri Asif Şirəliyevə göstərdikləri diqqət və dəstəyə görə təşəkkürünü ifadə edib.

Nihad Muradov qeyd edib ki, bu çempionatda əldə etdiyi beynəlxalq təcrübə onun gələcək fəaliyyətində, xüsusən də gənc idmançıların yetişdirilməsində böyük rol oynayacaq. O, qitə birinciliyində mənimsədiyi yeni hakimlik meyarlarını və praktiki bilikləri öz işində tətbiq edəcəyini, hədəfinin isə gələcəkdə beynəlxalq dərəcəli hakim statusu qazanaraq Azərbaycanı daha yüksək səviyyəli idman arenalarında təmsil etmək olduğunu diqqətə çatdırıb.

# Naxçıvanda gələcəyin dünya çempionları yetişir



Hövsan Olimpiya İdman Kompleksində Azərbaycanın Milli Qəhrəmanı Asif Məhərrəmovun xatirəsinə həsr olunmuş kikboksinq turnirinə yekun vurulub. 28 klubdan 300-dən çox idmançının qüvvəsini sınadığı nüfuzlu yarışda Naxçıvanın "Ləvənt Bulut" döyüş klubunun yetirmələri öz əzmkar çıxışları ilə növbəti dəfə uğura imza atıblar.

Turnirin ən həyəcanlı hissəsi sayılan qala gecəsində "low-kick" və "K1" növləri üzrə rinqə çıxan 6 idmançı döyüşlərdə qalib gələrək çempionluq kubokunu Naxçıvana gətiriblər. Yarışın gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması baxımından rolu böyük olub. Turnirdən qələbə ilə qayıdan komandanın üzvləri və məşqçisi yarış barədə öz təəssüratlarını bizimlə bölüşüblər.

70 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız Əli Yasinov bildirib ki, onun çəkisində çox təcrübəli və güclü rəqiblər olub: "Turnirin hər mərhələsi çətin keçsə də, mənim üçün ən böyük motivasiya yarışın daşıdığı ad olub. Biz Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş turnirdə iştirak etdik və böyük uğura imza atdıq. Bu qələbə təkcə bizim yox, həm də üzərimizdə əməyi olan məşqçilərimizin qələbəsidir".

26 kiloqram çəki dərəcəsində yarışan Samir Əliyev isə deyib ki, yaş və çəki baxımından komandanın kiçik üzvlərindən olsa da, rinqə çıxarkən heç bir həyəcan hiss etməyib: "Çünki arxamda məşqçimin və komanda yoldaşlarımın dəstəyini hiss edirdim. Bakıda Hövsan İdman Kompleksində tribunalardan gələn səslər, yarışın ab-havası məni daha da ruhlandırdı. Rəqibim çox güclü idi, amma rinqdə daha sürətli olmağa çalışdım və zərbələrimi dəqiq vurdum. Qalib elan olunub kubok mənə təqdim ediləndə çox sevindim. Naxçıvana çempion kimi qayıtmaq, valideynlərimi və doğmalarımı sevindirmək mənim üçün ən böyük xoşbəxtlikdir".

Məşqçi Nurlan Sadıqov isə deyib ki, Bakıda iştirak etdikləri turnirdə Naxçıvanın idman ənənələrini layiqincə təmsil ediblər: "Milli Qəhrəman Asif Məhərrəmovun xatirəsinə həsr olunmuş turnirdə rəqabətin çox ciddi olacağını əvvəlcədən bilirdik. 28 güclü klub arasında fərqlənmək heç də asan deyil. Tələbələrimlə uzun zamandır, gərgin məşqlər edirdik, daha çox taktiki hazırlıqlar üzərində çalışırdıq. Rinqə çıxan idmançılarımızın hər biri tapşırıqları dəqiqliklə yerinə yetirdi. Qala gecəsindəki döyüşlər psixoloji cəhətdən də böyük dözümlülük tələb edirdi. Uşaqlar həm "low-kick", həm də "K1" növlərində əsl xarakter nümayiş etdirdilər. Turnirə 6 idmançı ilə qatılmışdıq, 6 kubokla geri dönmək bizim üçün qürurvericidir. Qarşıda bizi beynəlxalq yarışlar gözləyir. Çalışacağıq ki, beynəlxalq arenalarda ölkəmizi layiqincə təmsil edək".

Gənclərin bu əzmi bir daha sübut edir ki, muxtar respublikamızda sağlam, vətənpərvər və gələcəyin dünya çempionları olacaq güclü bir nəsil yetişir.

✍ **Elnurə CƏFƏROVA**

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Naxçıvan Dövlət Universiteti**
**2026-2027-ci tədris ilində əlavə (təkrar) ali təhsilə tələbə qəbulu elan edir**

| | İxtisasın şifri | İxtisasın adı | Təhsil alanların illik təhsil haqqı məbləği (manatla) | |
|---|---|---|---|---|
| | | | Əyani | Qiyabi |
| 1. | 6002015 | Tarix | | 2000 |
| 2. | 6004004 | İqtisadiyyat | | 3000 |
| 3. | 6004008 | Mühasibat | | 2000 |
| 4. | 6100003 | Tibb | 5000 | |
| 5. | 6003011 | Musiqişünaslıq | | 2000 |
| 6. | 6002005 | Filologiya (Azərbaycan dili və ədəbiyyatı) | | 2000 |
| 7. | 6002012 | Psixologiya | | 2000 |
| 8. | 6006016 | İnformasiya texnologiyaları | | 2000 |
| 9. | 6003009 | İnstrumental ifaçılıq-Xalq çalğı alətləri | | 2000 |
| 10. | 6002010 | Kitabxanaçılıq və informasiya fəaliyyəti | | 2000 |
| 11. | 6003012 | Muzey, arxiv işi və abidələrin qorunması | | 2000 |

Əlavə (təkrar) ali təhsil almaq istəyən şəxslər 4 iyun-20 avqust 2026-cı il tarixlərdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin www.portal.edu.az platformasından qeydiyyatdan keçərək müraciətlərini edə bilərlər. Platformaya daxil olduqdan sonra "Əlavə təhsilə elektron sənəd qəbulu xidməti"nə keçid edərək müvafiq xanaları doldurduqdan sonra "Əvvəlki təhsil haqqında sənəd və onun əlavəsi"nin əslini (nüsxəsi icazə verilmir) və "İxtisasın tanınması və ekvivalentliyinin müəyyən edilməsini təsdiq edən sənəd" sistemə yükləməlidir.

Təkrar ali təhsil yalnız ödənişli formada bağlanmış fərdi müqavilə əsasında həyata keçirilir. Təhsilini müvəffəqiyyətlə başa vuranlara müvafiq ixtisas üzrə ali təhsil pilləsinin bakalavriat, əsas (baza ali) tibb təhsili səviyyələrində təhsilini bitirən şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə (bundan sonra – TMİS) "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq elektron sənəd formasında yaradılan müvafiq təhsil haqqında dövlət sənədi – diplom (diploma əlavə ilə birlikdə) verilir.

1993-cü ildən sonra xarici ali təhsil müəssisələrinin məzunları təhsil aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamə təqdim etməlidirlər.

Təkrar ali təhsilə qəbul 2 mərhələdə – test və müsahibə əsasında aparılır. Test mərhələsini uğurla keçən namizədlər müsahibə mərhələsinə buraxılacaq. Hər iki mərhələni uğurla keçən namizədlər təkrar ali təhsil almaq hüququ qazanır. İmtahanların tarixi və yeri haqqında məlumatlar namizədlərin şəxsi kabinetlərinə göndəriləcək.

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi, əsas bina***
***Telefon: 036-544-08-61 (Daxili: 1023)***

***Qeyd:*** *Tibb ixtisası üzrə müraciət etmiş namizədlərin əsas (baza ali) Tibb təhsili ixtisaslarına və ya Əczaçılıq, Kimya, Biologiya ixtisaslarına uyğun gəldiyi halda müraciət etmək hüququnu özündə saxlayır.*

# "Gənc istedadların dram dünyası" müsabiqəsinin qalibləri mükafatlandırılıb

"Gənc istedadların dram dünyası" teatr müsabiqəsi başa çatıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, muxtar respublika Gənclər və İdman, Təhsil və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən müsabiqədə 68 komandanın tərkibində 646 məktəbli iştirak edib.

İyunun 8-də keçirilən mükafatlandırma mərasimində çıxış edənlər müsabiqənin məktəblilərin yaradıcılıq potensialının üzə çıxarılması, teatr sənətinə marağın artırılması və milli-mənəvi dəyərlərin təbliği baxımından əhəmiyyətini vurğulayıblar.

Münsiflər heyətinin çıxışlarından sonra qaliblər mükafatlandırılıb. "Naxçıvan" komandası birinci, "Şahbuz" və "Ordubad" komandaları isə ikinci və üçüncü yerlərə layiq görülərək diplom, fəxri fərman, kubok və hədiyyələrlə təltif olunublar.



Tədbirin sonunda qalib komanda görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin "Pirverdinin xoruzu" əsəri əsasında hazırlanan tamaşanı nümayiş etdirib.

Müsabiqənin əsas məqsədi məktəblilərin teatr sənətinə marağını artırmaq, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək, vətənpərvərlik ruhunu gücləndirmək və nitq, səhnə davranışına, ünsiyyət bacarıqlarının formalaşmasına dəstək vermək olub.

## Elan

Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsi, Azərbaycan məhəlləsi, döngə 4 ilə döngə 6 arasındakı ərazidə yolun qaşınıb düzəldilməsi və möhkəmləndirilməsi üçün müsabiqə elan edir.

Müsabiqədə iştirak etmək istəyən şirkətlər 08.06.2026-cı il tarixdən 16.06.2026-cı il tarixədək Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsinə müraciət edə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Kazım Talıblı küçəsi, ev 20***
***Əlaqə telefonu: 050-633-21-01***

## İtmişdir

Babək rayonu, Çeşməbasar kəndində Feyzullayev Tahir Feyzulla oğlunun adına olan JN-141A və JN-141B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Didivar kənd sakini Yediyarov Qurban Haqverdi oğlunun adına olan JN-224A nömrəli, 10311058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-0033 nömrəli, 10311068 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kənd sakini Tahirov Mehdi Hüseyn oğlunun adına olan JN-534A nömrəli, 10200078 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kənd sakini İsmayılov Şirin İsmayıl oğlunun adına olan JN-609A nömrəli, 10200078 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Baş leytenant Allahverdiyev Mustafa Əlövsət oğlunun adına verilmiş 0066474 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

"Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 185 FX 477 dövlət nömrə nişanlı yükqaldırıcının texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Sabir küçəsi, döngə 4, ev 2-də yaşayan Məmmədova Fəridə Arif qızına məxsus evin 215 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Əliyeva (Seyidova) Şəbnəm Rza qızının adına olan 1877 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Rəhimov Camal Muxtar oğlunun adına olan 1439 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kəndində yaşamış Əbilova Şəkər Oruc qızının adına verilmiş JN-1575A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Təbriz küçəsi 11/30 ünvanında yaşayan Əliyev Xanbaba Məmməd oğlunun adına olan evin 104011000140-05101-093011 reyestr nömrəli, 14121 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndi, 4-cü küçə, döngə 7, ev 5 ünvanında yerləşən Səfərov Şəmsəddin Qulam oğluna məxsus evin 01 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Bənəniyar kənd sakini Vəliyev Şərbət Gəncəli oğlunun adına verilmiş AD-0014992 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd kəndində yaşamış Məmmədov Zahid İsmayıl oğluna məxsus JN-48A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çomaxtur kəndində yaşamış Abdullayev Yaqub Əli oğluna məxsus JN-66A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
RƏMZİ TAHİRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 121

Nömrəyə məsul: Nail Əsgərov, Əhməd Əhmədov, Günay Hacıyeva
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.